15 noyabr 2019-cu il
№43 (8858)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## Bu sayımızda

"Heydər Əliyev və Azərbaycan tarixi" VI ümumrespublika bilik yarışı ⇨səh.3

Sağlam təhsil - SABAH auditoriyasının açılışı olub ⇨səh.3

Müəllim cəmiyyət quruculuğunun mənəvi memarıdır ⇨səh.4

"İtaliyada seçilmiş 7 pianoçudan biri də mən oldum" ⇨səh.7

# Azərbaycan təhsil sisteminin inkişafında atılan addımlar

## YUNESKO-nun Baş Konfransında müzakirə olunub



Təhsil naziri Ceyhun Bayramov YUNESKO Baş Konfransının 40-cı sessiyası çərçivəsində 13 noyabr 2019-cu il tarixində keçiriləcək Təhsil nazirlərinin Yüksək Səviyyəli Görüşündə iştirak etmək məqsədilə Fransa Respublikasının Paris şəhərinə rəsmi səfər edib.

Noyabrın 13-də Ceyhun Bayramov YUNESKO-nun "Ələddin" layihəsi və Holokost Muzeyinin birgə təşkil etdiyi "Məktəblər və ekstremizm, vəsvəsə və dözümsüzlük çağırışları: müvəffəqiyyət və uğursuzluqlar; bu halların qarşısının alınması üçün hansı effektiv strategiyalar mövcuddur?" adlı tədbirdə iştirak edib.

Tədbirdə çıxış edən nazir Azərbaycanda müxtəlif xalqlar, dinlər və mədəniyyətlər arasında əsrlər boyu formalaşmış qarşılıqlı hörmət münasibətlərindən danışıb, bu ənənələrin davam və inkişaf etdirilməsinin dövlət siyasətinin tərkib hissəsi olduğunu vurğulayıb. Təhsil naziri multikulturalizm ənənələrinin gənc nəslə çatdırılması məqsədilə məktəblərdə tolerantlıq və qarşılıqlı hörmət anlayışlarının müxtəlif fənlər çərçivəsində şagirdlərə çatdırıldığını, eləcə də ali təhsil müəssisələrinin bakalavriat səviyyəsində "Multikulturalizmə giriş", magistratura səviyyəsində isə "Azərbaycanda multikulturalizm" fənlərinin tədris olunduğunu qeyd edib.

⇨Ardı səh.2

# Hərəkətdə təlim şəraitində tədris

Bu siniflərdə şagirdlər özlərini lap evdəki kimi hiss edirlər. Yorulanda ayağa durur, xalçanın üzərində gəzişir, daha sərbəst olur, sıxılmırlar. Burada partalar da fərqlidir. Həmin sinif otaqlarında həm oturacaqlı, həm də hündür masalar yerləşdirilib. Masaları hazırda istifadə edilən ənənəvi məktəb masalarından fərqləndirən ən mühüm cəhət onların səthinin nisbətən maili olmasıdır. Hər 15 dəqiqədən bir şagirdlər yerlərini dəyişir və müvafiq tapşırıqları yerinə yetirirlər. Siniflər digərlərindən bir sıra xüsusiyyətləri ilə də fərqlənir. Ən başlıcası burada tədris hərəkətdə təlim şəraitində həyata keçirilir. Şagirdlərin, eyni zamanda müəllimlərin də hər zaman hərəkətliliyi təmin olunur. Bu gün dünyanın bir sıra inkişaf etmiş ölkələrinin üstünlük verdiyi hərəkətli tədris mühitinə bizim həkim və mütəxəssislərimiz tərəfindən də böyük dəstək verilir. Qeyd edək ki, bu siniflər həm də fərqli dizaynı, gözəl tərtibatı ilə seçilir. Diqqətçəkən məqamlardan biri də odur ki, belə siniflər bucaqsızdır. Otaqda düz xətlər görə bilməzsiniz. Belə bir tərtibat uşaqları psixi stressdən qorumaq üçün nəzərdə tutulub. Otaqda panorama effekti yaradılıb. Görünən bucaqlarda ağac şəkilləri çəkilib. Şagirdlər özlərini sanki sinifdə deyil, qeyri-adi bir məkanda, təbiət qoynunda hiss edirlər.

Bütün bu yeniliklər və tətbiq olunan texnologiyalar Təhsil Nazirliyinin təşəbbüsü ilə 2014-2015-ci tədris ilindən etibarən həyata keçirilən "Sağlam təhsil-sağlam millət" layihəsi çərçivəsində yaradılan "Sağlam təhsil sinifləri"ndədir. "Sağlam təhsil-sağlam millət" layihəsi təhsilalanların sağlamlığının qorunması istiqamətində atılan vacib addımlardan biridir. Layihənin əsas vəzifəsi uşaq və yeniyetmələrin fiziki-psixi sağlamlığının qorunmasına xidmət edən sağlam təhsil texnologiyalarını işləyib hazırlamaq və tətbiq etmək, şagirdlərdə milli-mənəvi dəyərlərin formalaşdırılmasını təmin edəcək təlim mühitinin yaradılması işinə töhfələr verməkdir. Layihə dörd əsas istiqamətdə inkişaf etdirilir: tibbi-gigiyenik, psixoloji-sosioloji, pedaqoji, gender. Onu da qeyd edək ki, layihəyə başlanılmazdan əvvəl şagirdlərimizin sağlamlıq vəziyyətini tədqiq etmək üçün monitorinqlər həyata keçirilib. Bu sahədə görülən işlərin elmi-nəzəri və praktik keyfiyyətini təmin etmək məqsədilə tibb, pedaqogika və gender sahələri üzrə ekspertlər cəlb edilib, eyni zamanda bununla bağlı dünyanın qabaqcıl təcrübəsi araşdırılıb, geniş təhlil olunub. Rusiya Uşaqların Sağlamlığı Naminə Birliyinin rəhbəri, professor Vladimir Bazarnının təhsilalanların sağlamlığının qorunması istiqamətində 35 illik təcrübəsi xüsusilə diqqəti cəlb edib və alim ölkəmizə dəvət olunub. Yəni, göründüyü kimi, bu layihənin Azərbaycan şagirdinin yüksək təhsil alması ilə yanaşı, onun sağlamlığının qorunmasında nə dərəcədə effektiv nəticələr verə biləcəyi ən xırda detallara qədər öyrənilib.

⇨Ardı səh.5

# Şagirdlər rəqəmsal dünyada yaşamağa hazırdır?

Qloballaşma yeni dövrün trendlərindən biri kimi şagirdlərin rəqəmsal bacarıqlarının daim təkmilləşməsini zəruri edir. XXI əsr reallıqları uğurlu gələcəyin təmin olunması baxımından şagirdlərdən tənqidi təfəkkür və səriştə tələb edir. Bu sahədə aparılan beynəlxalq tədqiqatlar təhsilalanların yeni dünyada yaşamağa nə dərəcədə hazırlanması keyfiyyətlərini müəyyən etməyə kömək edir.

Kompüter və İnformasiya Savadlılığı Beynəlxalq Tədqiqatının (ICILS -International Computer and Information Literacy Study) 2018-ci ilin nəticələrinə dair son açıqlaması dünyada bu sahədə vəziyyəti və ölkələrin marağını əks etdirir. Dünyanın 12 ölkəsində 46 mindən çox şagird və 26 min müəllimi əhatə edən tədqiqatın nəticələrinə görə, Danimarka məktəbliləri 557 balla kompüter və informasiya savadlılığı üzrə dünyada birincidir. Rusiya məktəbliləri 549 balla ikinci, Koreya Respublikasının şagirdləri 542 balla 3-cü sıralarda yer alıb.

Ekspertlər VIII sinif şagirdlərinin kompüter və informasiya savadlılığını, həmçinin kompüter təfəkkürü bacarıqlarını qiymətləndiriblər. Tədqiqatın keçirilməsində məqsəd məktəblilərin rəqəmsal dünyada yaşamağa, təhsilə və iş həyatına nə qədər yaxşı hazırlandığını öyrənmək olub. Tədqiqat testdən və böyük layihə tapşırığından ibarət olub. Uşaqlar kompüterlə işləmək, informasiya axtarmaq və onu idarə etmək, öz rəqəmsal məhsullarını yaratmaq, e-poçt və sosial şəbəkələrdən istifadə etmək bacarığını nümayiş etdiriblər.

⇨Ardı səh.8

# Çevik məşğulluq

## Yeni nəsil əmək bazarındakı münasibətləri dəyişir

1995-ci ildən sonra dünyaya gələn Z nəslinin nümayəndələri bu ildən etibarən əmək bazarına çıxırlar. Əvvəlki nəsillərdən fərqlənən və şərti olaraq "rəqəmsallar" kimi tanınan şəxslərin bazarda ciddi dəyişikliklərə səbəb olacaqları gözlənilir. Artıq ABŞ şirkətləri nəzərə alırlar ki, yeni işçi cəlbetmə prosesinə korrektələr etmək lazımdır: köhnə strategiyalar işləməyəcək. Pul yenə də pul olaraq qalır və dünyanı idarə edir. Amma Z nəslini maliyyə ilə yanaşı, qarşıya qoyulmuş məqsədlərə çatmağa can atan şirkətlərdə çalışmaq perspektivi də ciddi maraqlandırır. Yeni işçi qüvvəsinin, belə demək mümkündürsə, "nazı ilə oynamağa" çalışan iri korporasiyalar göstərmək istəyirlər ki, "rəqəmsallar"a həm pul təklif edə bilərlər, həm də perspektivli karyera...

### Ən yaxşı işəgötürən

"Statista" araşdırma şirkəti ABŞ-da fəaliyyət göstərən ən yaxşı işəgötürənlərin növbəti illik reytinqini tərtib edib. Reytinqin müəyyən olunmasında ən azı 10 illik stajı olan, 1000 nəfərdən az olmayan işçi kontingentinə malik şirkətlərdə işləyən 10 min nəfər respondent kimi iştirak edib. Bütün suallar anonim olub. İştirakçılara işəgötürənləri aşağıdakı kriteriyalar üzrə qiymətləndirməyi təklif ediblər: əmək şəraiti, əməkhaqqı və bu iş yerini digər şəxsə də məsləhət görmə ehtimalı.

Reytinqin top-üçlüyünə daxil olan iki şirkət - "Trader Joes" supermarketlər şəbəkəsi və texnoloji sosial şəbəkə "LinkedIn" hamı üçün xoş sürpriz olub. "Trader Joes" supermarketlər şəbəkəsi nəinki reytinqin ilk sırasında qərarlaşıb, habelə prinsip etibarilə Amerikanın ən yaxşı işəgötürəni hesab edilib. 2018-ci ilin reytinqində ilk sırada "məskunlaşmış" proqram təminatı ilə məşğul olan "Adobe Systems" bu dəfə 3-cü pillədə qərarlaşıb. İkinci yerə isə "LinkedIn" işgüzar sosial şəbəkəsi qalxıb. Mənzil-qərargahı Kaliforniyanın Sanniveyl şəhərində olan şəbəkə ötən il reytinqdə 11-ci olsa da, bu il sürətlə yuxarı qalxaraq 2-ci yeri tutub.

"LinkedIn"in gənclər arasında belə populyar olmasını bir neçə amillə əlaqələndirirlər. Ən əsası budur ki, sosial şəbəkə əməkdaşlarına çevik güzəştlər və bonuslar proqramını təklif edir. Şirkətin HR direktoru Kristina Hollun sözlərinə görə, indiki gənclori kafe və fitnes-klublar deyil, "LinkedIn" kimi texnoloji sosial şəbəkələr cəlb edir: "Bizim missiyamız bütün dünyada mütəxəssislərin imkanlarının genişləndirilməsinə töhfə verməkdir. Bu missiya bizim korporativ mədəniyyətimizin əsasını təşkil edir".

⇨Ardı səh.8

# 146-2 "Qaynar xətt" xidmətinə oktyabr ayında 28 müraciət daxil olub

Cari ilin oktyabr ayında Təhsil Nazirliyinin xüsusi hallarla bağlı 146-2 "Qaynar xətt" xidmətinə 28 müraciət daxil olub. Bakı, Sumqayıt və Gəncə şəhərləri, Abşeron, Saatlı, İsmayıllı, Astara, Ağdaş, Samux, Ağsu, Biləsuvar və Yevlax rayonlarından daxil olan bu müraciətlər əsasən şagirdlər arasında qısnama halları və ya şagird-müəllim arasında yaranmış münaqişə vəziyyətləri ilə bağlıdır.

Təhsil Nazirliyinin tapşırığına əsasən, müraciətlər şagirdlərin, onların valideynlərinin və müəllimlərinin iştirakı ilə yerində dərhal araşdırılıb. Araşdırma nəticəsində Bakı şəhəri 19, 31, 85 və 261 nömrəli tam orta məktəblərində, Sumqayıt şəhəri Nizami Gəncəvi adına Texniki və Təbiət Elmləri liseyində və 33 nömrəli tam orta məktəbdə, Astara rayonu Şahağacı kənd 2 nömrəli məktəbdə, Samux rayonu Alabaşlı kənd tam orta məktəbində təsdiqini tapmış hallar həmin məktəblərin Pedaqoji şuralarının müzakirəsinə çıxarılıb. Fəaliyyətində nöqsanlara yol vermiş məsul şəxslərdən birinə yazılı xəbərdarlıq, yeddi nəfərə isə töhmət verilib.



# "Sevmədiyin peşədə heç zaman uğur qazana bilməzsən"

*İlyas Musayev:*
"Aşbazlıq həyat tərzimdir"

Səh.6

## RƏSMİ XRONİKA



- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 14-də Bakıda keçirilən Dünya dini liderlərinin II Sammitinin açılış mərasimində iştirak ediblər. Prezident İlham Əliyev Sammitdə nitq söyləyib. Dövlət başçısı İlham Əliyev "Heydər Əliyev" ordenini Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadəyə təqdim edib.
- Noyabrın 13-də Prezident İlham Əliyev "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədrini, Rusiya Federasiya Şurasının sədr müavinini və komitə sədrini, Dağıstan Xalq Məclisinin sədrini və sədrin müşavirini, Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının icraçı sədr müavinini, həmçinin İranın Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədrinin, Misirin Nümayəndələr Palatası sədrinin birinci müavininin başçılıq etdikləri nümayəndə heyətlərini qəbul edib.
- Noyabrın 12-də dövlət başçısı İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin İqtisadiyyat naziri Sultan bin Səid əl-Mansurinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
- Noyabrın 12-də Prezident İlham Əliyev İlqar Namaz oğlu Abbasovun Bakı şəhəri Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı, Lütvəli Babəli oğlu Babayevin Zərdab Rayon İcra Hakimiyyətinin başçısı, Mərdan Talıb oğlu Camalovun Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı, Əziz İmran oğlu Əzizovun Bakı şəhəri Yasamal Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrindən azad edilmələri haqqında sərəncamlar imzalayıb. Ölkə başçısı İlham Əliyevin imzaladığı digər sərəncamlarla İlqar Namaz oğlu Abbasov Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı, Mərdan Talıb oğlu Camalov Zərdab Rayon İcra Hakimiyyətinin başçısı, Əziz İmran oğlu Əzizov Bakı şəhəri Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı, Elşad Eldar oğlu Həsənov Bakı şəhəri Yasamal Rayon İcra Hakimiyyətinin başçısı, Rafiq Çəpərxan oğlu Quliyev Bakı şəhəri Xətai Rayon İcra Hakimiyyətinin başçıları təyin ediliblər. Həmin gün dövlət başçısı İlham Əliyev İlqar Abbasovu Şirvan şəhər, Mərdan Camalovu Zərdab, Əziz Əzizovu Bakının Suraxanı, Elşad Həsənovu Yasamal, Rafiq Quliyevi Xətai rayonlarının icra hakimiyyətlərinin başçıları vəzifələrinə təyin olunmaları ilə bağlı qəbul edib.
- Prezident İlham Əliyev noyabrın 12-də "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1685-VQD nömrəli Qanununun tətbiqi haqqında sərəncam imzalayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 11-də Heydər Əliyev Fondu tərəfindən Bakının Xətai rayonunda salınan yeni "Gənclik" parkında "Təbiət naminə birləş, Həyat naminə birləş!" layihəsi çərçivəsində ağacəkmə aksiyasında iştirak ediblər, parkda ağac əkiblər. Dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ağacəkmə aksiyasının iştirakçıları ilə görüşüb söhbət ediblər.
- Noyabrın 8-də ölkə başçısı İlham Əliyev Ağcabədi rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.

## "Təhsildə müasir texnologiyalar"

11-12 noyabr tarixlərində Təhsil Nazirliyinin dəstəyi və Rusiya Eksport Mərkəzinin təşkilatçılığı ilə "Təhsildə müasir texnologiyalar" mövzusunda Rusiya şirkətlərinin Azərbaycana işgüzar missiyası təşkil olunub.

Səfər çərçivəsində noyabrın 11-də təhsil işçiləri üçün "Rusiyanın təhsil mühiti üçün yeni texnologiyaları" mövzusunda konfrans keçirilib.

Konfransda Rusiya Federasiyasının Azərbaycandakı səfiri Mixail Boçarnikov, Təhsil Nazirliyinin Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov, "Rusiya Eksport Mərkəzi" Səhmdar Cəmiyyətinin rəhbəri Nuri Quliyev, Rusiya şirkətlərinin nümayəndələri və təhsil işçiləri iştirak ediblər.

Konfransda çıxış edən Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov bildirib ki, ölkələrimiz arasında bütün sahələrdə əlaqələr uğurla inkişaf edir. O, təhsildə müasir texnologiyalar sahəsində işgüzar missiyanın təşkilini yüksək qiymətləndirib və ölkələr arasında bu sahədə əməkdaşlığa töhfə verəcəyinə əminliyini ifadə edib.

Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov çıxışında ölkəmizdə təhsil sistemində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi üzrə aparılan işlər barədə məlumat verib və bu texnologiyalardan istifadənin dünya standartları səviyyəsinə çatdırılmasının əhəmiyyətindən danışıb.

Daha sonra Rusiya şirkətlərinin təhsil avadanlığı və tədris vəsaitləri ilə bağlı təqdimatları dinlənilib və qonaqlar şirkətlərin stendləri ilə tanış olublar.

İşgüzar missiya çərçivəsində noyabrın 12-də Rusiya nümayəndə heyətinin ümumi təhsil, peşə təhsili və ali təhsil müəssisələrinə səfərləri baş tutub. Səfərlər çərçivəsində Rusiyanın təhsil sahəsində avadanlıq, proqram təminatı, məktəb mebeli, təhsilalanların yaradıcılıq istedadını püxtələşdirmək üçün alətlər təqdim olunub və əməkdaşlıq əlaqələri müzakirə olunub.

# Azərbaycan təhsil sisteminin inkişafında atılan addımlar

## YUNESKO-nun Baş Konfransında müzakirə olunub

⇦ Əvvəli səh.1

Nazir həmçinin Azərbaycanın ekstremizmdən əziyyət çəkməsi, ölkənin suveren ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal edilməsi, Xocalıda dinc əhalinin soyqırıma məruz qalması faktlarını tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tədbirdə Fransa Respublikası, İsveç Krallığı, Bolqarıstan Respublikası, Tunis Respublikası, Serbiya Respublikası, Uqanda Respublikası, Mali Respublikası, eləcə də Ermənistan Respublikasının Təhsil nazirləri, YUNESKO-nun keçmiş Baş direktoru İrina Bokova və Fransanın sabiq Baş naziri Jan-Pier Raffarin iştirak edib.








### Təhsil sahəsində YUNESKO-Azərbaycan əməkdaşlığı

Parisdə YUNESKO-nun Baş Konfransının 40-cı sessiyasına qatılan Azərbaycanın Təhsil naziri Ceyhun Bayramov qurumun baş direktorunun təhsil üzrə müavini Stefania Ciannini ilə görüşüb.

Görüşdə Təhsil naziri ölkəmizdə təhsil sahəsində aparılan islahatlar və onların müsbət nəticələri haqqında ətraflı məlumat verib. Nazir Azərbaycan Prezidentinin təhsilin inkişafına göstərdiyi diqqət və qayğıdan danışıb.

Bildirilib ki, ölkəmizdə təhsilin inkişafı dövlət siyasətinin mühüm strateji istiqamətlərindən biridir.

Stefania Ciannini ölkəmiz və təmsil etdiyi qurum arasında təhsil sahəsində əməkdaşlıqdan söz açaraq onu yüksək qiymətləndirib. O, əməkdaşlığın bundan sonra da müvəffəqiyyətlə davam edəcəyinə əminliyini bildirib.

### Təhsil nazirlərinin iclasında

"Bu gün ali təhsilin beynəlmiləlləşməsi qloballaşmanın yaratdığı çağırış və ehtiyaclara cavab verir. Milli və ya beynəlxalq səviyyələrdə universitetlərin yeri, eləcə də onların beynəlmiləlləşməsi dərəcəsi təhsilin keyfiyyətində ən vacib amillərdəndir. Beynəlmiləlləşmə təhsilin keyfiyyətini artırır və ali təhsil müəssisələri üçün daha geniş imkanlar yaradır".

Bu sözləri YUNESKO-nun Baş Konfransının 40-cı sessiyası çərçivəsində keçirilən təhsil nazirlərinin iclasında nazir Ceyhun Bayramov söyləyib.

"Qürur hissi ilə bildirirəm ki, Azərbaycan dövlət başçısının təsdiqlədiyi "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası" əsasında təhsil sahəsində islahatların hazırlanması, həyata keçirilməsi üçün mühüm addımlar atılır. Bu təməl sənəd təhsil sistemimizə, onun çatışmazlıqları və zəif cəhətlərinə tənqidi baxışın nəticəsidir", - deyə nazir diqqətə çatdırıb. O vurğulayıb ki, ölkəmizdə ali təhsil sisteminin beynəlmiləlləşməsinin gücləndirilməsi istiqamətində səylər artırılıb. Bu sahədə əsas uğurlardan biri "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın təsdiqlənməsidir.

Nazir Azərbaycan təhsil sisteminin qlobal mühitə inteqrasiyasından da söz açıb, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı", bu proqram çərçivəsində xaricdə təhsil almış azərbaycanlı tələbələrdən danışıb.

O, ölkəmizdə bir sıra ali təhsil müəssisələrinin tələbə mübadiləsi, eləcə də ikili diplom proqramlarından bəhrələndiyini qeyd edib və ölkəmizdə 10 universitetdə ikili diplom proqramının tətbiq edildiyini diqqətə çatdırıb.

C.Bayramov Strasburq Universitetinin rəhbərlik etdiyi konsorsium ilə əməkdaşlıq nəticəsində yaradılmış Azərbaycan-Fransız Universitetinin (UFAZ) bu istiqamətdə uğurlu nümunə olduğunu vurğulayıb və ikili diplom proqramlarının universitetlərarası əlaqələrin təkmilləşməsinə töhfə verdiyini qeyd edib.

Təhsil naziri həmçinin Azərbaycan universitetlərinin Erasmus layihələrindəki iştirakına toxunub. Bu layihə çərçivəsində 2015-2019-cu illərdə 1600-dən çox azərbaycanlı tələbənin müxtəlif Avropa universitetlərində mübadilə keçdiyini qeyd edib. Diqqətə çatdırıb ki, ölkəmizdə təhsil sahəsində görülən bütün tədbirlər öz müsbət nəticələrini verməkdədir. Dünya İqtisadi Forumunun yaydığı "Qlobal Rəqabətlilik İndeksi 2019" hesabatında Azərbaycan ötənilki göstərici ilə müqayisədə 11 pillə irəliləyərək, 141 ölkə arasında 58-ci yeri tutub. Təhsilin kəmiyyət və keyfiyyət göstəricilərini ölçən "Bacarıqlar" ("Skills") kateqoriyası üzrə Azərbaycan bu il 6 pillə irəliləyərək 48-ci yerdə qərarlaşıb.

### Türkiyə, Rusiya və Malayziyanın Təhsil nazirləri ilə görüş

YUNESKO-nun 40-cı Baş Konfransında iştirak etmək məqsədilə Fransa Respublikasında rəsmi səfərdə olan Təhsil naziri Ceyhun Bayramov Türkiyə Respublikasının Milli Təhsil naziri Ziya Səlçuk, Rusiya Federasiyası Elm və Ali Təhsil naziri Mixail Kotyukov və Malayziyanın Təhsil naziri Mazli Malik ilə görüşüb.

Görüşlər zamanı təhsil sahəsində əlaqələrin cari vəziyyəti və inkişafı, o cümlədən Azərbaycanla sözügedən ölkələrin ali təhsil müəssisələri arasında əməkdaşlıq perspektivləri müzakirə edilib.

## Peşə təhsili müəssisələrinin mühəndis-pedaqoji heyəti İzmirdə

Peşə təhsili müəssisələrinin mühəndis-pedaqoji heyəti üçün 2019-2020-ci tədris ili ərzində Türkiyədə təşkil olunan təlimlər davam edir.

Təlim çərçivəsində iştirakçılar İzmirdə təşkil olunan "Elm və texniki layihə" sərgisində iştirak ediblər.

Qeyd edək ki, təlimlər Azərbaycan və Türkiyənin peşə təhsili sahəsində əməkdaşlığı çərçivəsində təşkil olunub. Təlimlər Peşə Təhsili üzrə Dövlət Agentliyi rəhbərliyinin, peşə təhsili müəssisələrinin idarə heyətinin və müxtəlif peşə istiqamətləri üzrə istehsalat təlim ustaları və ixtisas fənn müəllimlərinin iştirakı ilə Ankara, İstanbul və İzmir şəhərlərində keçirilir.

Liderlik, turizm, inşaat, dərzi, dizayn, incəsənət, avtomobil, kənd təsərrüfatı, elektrik və zərgərlik istiqamətləri üzrə keçirilməsi planlaşdırılan 2-12 həftəlik təlimlərin təşkilində məqsəd peşə təhsili müəssisələrinin mühəndis-pedaqoji heyətinin ixtisasartırılmasıdır.

# Təhsil işçilərinə dövlət təltifləri təqdim olunub

Noyabrın 8-də dövlət təltiflərinə layiq görülən təhsil işçilərinə mükafatların təqdim olunması mərasimi keçirilib.

Tədbirdən əvvəl Təhsil naziri Ceyhun Bayramov, rəhbər təhsil işçiləri və dövlət təltiflərinə layiq görülən müəllimlər Fəxri xiyabana gedərək ümummilli lider Heydər Əliyevin xatirəsini anıb, məzarı önünə gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı üstünə də tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olan Vətən övladlarının xatirəsi anılıb, məzarları üzərinə güllər qoyulub.

Təhsil naziri Ceyhun Bayramov çıxış edərək ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə təhsilin inkişafındakı xidmətlərinə görə fəxri adlara layiq görülən təhsil işçilərini təbrik edib və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Nazir son illərdə ölkəmizdə insan kapitalının inkişafı, o cümlədən təhsil sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər barədə danışıb.

Ceyhun Bayramov ümummilli lider Heydər Əliyevin müəllim peşəsinə sonsuz diqqətinin dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, müəllim nüfuzunun yüksəldilməsi istiqamətində addımlar atıldığını deyib. Nazir əlavə edib ki, son illərdə Təhsil Nazirliyinin fəaliyyətində müəllimlərlə bağlı siyasət prioritet təşkil edib, ən ciddi uğurlar da məhz müəllim nüfuzunun, müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, istedadlı insanların müəllim peşəsinə cəlb edilməsi istiqamətində əldə edilib.

Təhsilin inkişafı üzrə Dövlət Strategiyasının təsdiq edilməsindən ötən dövr ərzində bütün pillə və səviyyələr üzrə görülən işləri diqqətə çatdıran nazir bildirib ki, bu gün qarşıda duran ən vacib vəzifələr təhsilin hər bir vətəndaş üçün əlçatanlığının təmin edilməsi, keyfiyyət göstəricilərinin yüksək və rəqabətli olmasıdır. Bununla əlaqədar hər bir təhsil işçisi qeyd edilən məsələləri əsas fəaliyyət istiqaməti kimi nəzərə almalı və təmin etməlidir.

Nazir çıxışının sonunda bir daha təltif edilən təhsil işçilərini təbrik edib.

Mərasimdə təltif olunan müəllimlər göstərilən diqqət və qayğıya görə ölkə Prezidentinə minnətdarlıqlarını bildirib, şagirdlərin hərtərəfli bilik və bacarıqlara malik şəxsiyyət kimi yetişdirilməsi işində yüksək əzmlə çalışacaqlarını qeyd ediblər.

Tədbirin sonunda təltif edilən təhsil işçilərinə medal və vəsiqələr təqdim olunub.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 3 oktyabr 2019-cu il tarixli sərəncamları ilə təhsilin inkişafındakı xidmətlərinə görə 126 nəfər "Tərəqqi" medalı və "Əməkdar müəllim" fəxri adı ilə təltif edilib.

# "Heydər Əliyev və Azərbaycan tarixi" VI ümumrespublika bilik yarışı




Noyabrın 12-də Heydər Əliyev Mərkəzində "Heydər Əliyev və Azərbaycan tarixi" VI ümumrespublika bilik yarışı keçirilib.

Heydər Əliyev Mərkəzinin təşkilatçılığı və Təhsil Nazirliyinin dəstəyi ilə reallaşdırılan layihədə bu il 49 ali təhsil müəssisəsinin komandaları iştirak edib.

Tədbirdə məlumat verilib ki, 2014-cü ildən etibarən hər il həyata keçirilən layihə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətinin öyrənilməsi, Ulu Öndərin irsinin yaşadılması və gənclər arasında təbliği, eyni zamanda, gənc nəslin elmə, maarifləndirici yarışlara marağının artırılması məqsədini daşıyır. Builki yarış isə 12 noyabr - Konstitusiya Gününün qeyd olunduğu tarixdə keçirilir. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası 1995-ci ilin məhz bu günü ümumxalq səsverməsi ilə qəbul edilib.

Tədbirdə ulu öndər Heydər Əliyevin Konstitusiya Günü ilə bağlı çıxışını əks etdirən videoçarx nümayiş olunub.

Diqqətə çatdırılıb ki, "Heydər Əliyev və Azərbaycan tarixi" bilik yarışında iştirak edən komandalar hazırlıq məqsədilə oktyabrın 29-dan noyabrın 7-dək Mərkəzdəki Heydər Əliyev Muzeyini ziyarət edib, burada toplanmış məlumat və eksponatlar, foto və videomateriallarla tanış olublar.

Sonra tələbələrin yarışa hazırlığını əks etdirən videoçarx nümayiş olunub.

Bu il Azərbaycan-Fransız Universitetinin (UFAZ) komandası ilk dəfə, Naxçıvan Dövlət Universitetinin komandası isə dördillik fasilədən sonra yenidən bilik yarışına qatılıb.

Bilik yarışında suallar ulu öndər Heydər Əliyevin irsini, Azərbaycan tarixinin mühüm dövr və hadisələrini əhatə edib.

Münsiflər heyətində Heydər Əliyev Mərkəzi, Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun nümayəndələri təmsil olunublar.

Bilik yarışında Daxili İşlər Nazirliyinin Polis Akademiyasının komandası birinci, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası ikinci, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Akademiyasının komandası üçüncü yerlərə layiq görülüblər.

Qalib komandalar mükafatlandırılıb. Onlara diplom və medallar, qalib komandanın kapitanına kubok təqdim edilib.

Yarışın qalibi olan Daxili İşlər Nazirliyinin Polis Akademiyasının komandasının kapitanı Bəxtiyar Əlizadə bu cür genişmiqyaslı bilik yarışlarının təşkil edilməsində böyük rolu olan Heydər Əliyev Mərkəzinə minnətdarlığını bildirib. Qeyd edib ki, Ulu Öndərin irsinin, tariximizin öyrənilməsi hər bir Azərbaycan vətəndaşının borcudur. "Heydər Əliyev və Azərbaycan tarixi" VI ümumrespublika bilik yarışında iştirak edən ali təhsil müəssisələrinin komandaları yüksək bilik nümayiş etdiriblər. Buna baxmayaraq, biz qələbə qazandıq. Daxili İşlər Nazirliyinin Polis Akademiyasının müəllim-professor heyətini, kursantlarımızı və komandamızın üzvlərini təbrik edirəm.

**AZƏRTAC**

# Nazir müavini bölgələrdə təhsil işçiləri ilə görüşüb

Noyabrın 12-də Zərdab rayonu Heydər Əliyev Mərkəzində Ağcabədi, Ağdam, Zərdab və Laçın rayon təhsil şöbələrinin hesabat tədbiri keçirilib.

Tədbirdə Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Ağcabədi, Ağdam, Zərdab və Laçın rayon təhsil şöbələrinin müdirləri, təhsil işçiləri və məktəb direktorları iştirak ediblər.

Öncə qonaqlar ulu öndərin Heydər Əliyev Mərkəzinin qarşısında ucaldılmış abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri qoyublar.

Tədbirdə Ağcabədi, Ağdam, Zərdab və Laçın rayonlarının təhsil şöbələri müdirlərinin ders ilinin prioritet fəaliyyət istiqamətləri üzrə Təhsil Nazirliyinin müvafiq əmrlərinin icra vəziyyəti ilə əlaqədar hesabat məruzələri dinlənilib.

Daha sonra çıxış edən Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva hesabatları təhlil edərək öz münasibətini bildirib. Nazir müavini ölkə Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim təhsil sahəsinə xüsusi diqqət və qayğı göstərdiyini vurğulayıb. Ümumi təhsil müəssisələrinin buraxılış imtahanlarının nəticələrinə və olimpiada uğurlarına toxunan nazir müavini bu nəticələrin daha da yaxşılaşdırılması üçün lazımi işlərin görülməsinin vacibliyini diqqətə çatdırıb.

Sonra qeyd olunan rayonların məktəb direktorları ilə görüş keçirilib. Görüşdə Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva bildirib ki, hər bir bölgənin təhsilinin inkişafı üçün yerli təhsil idarəetmə qurumları deyil, həm də məktəb direktorları məsuliyyət daşıyır. Nazir müavini bölgələrin təhsil sahəsində əldə etdiyi uğurların, həmçinin göstərdiyi zəif nəticələrin hər zaman nazirliyin diqqətində olduğunu söyləyib. Məhəbbət Vəliyeva bildirib ki, zəif nəticələr təhlil edilir, səbəblər araşdırılaraq müvafiq tədbirlər görülür, yüksək nəticələr isə qiymətləndirilir.

Nazir müavini ümumi təhsil müəssisələrində sağlam, keyfiyyətli təhsil mühitinin təşkilinin vacibliyini vurğulayaraq bildirib ki, bunun üçün Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən risk qrupuna daxil olan şagirdlərlə ciddi məşğul olmaq lazımdır. Eyni zamanda, Məhəbbət Vəliyeva qarşıda duran prioritet məsələlərlə bağlı işlərin davam etdirilməsinin önəminə diqqət çəkib.



Çıxışının sonunda Məhəbbət Vəliyeva təhsil işçilərinə tövsiyə və tapşırıqlarını verib, onlara uğurlar arzulayıb.

Sonra təhsil işçilərini maraqlandıran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Tədbirdə xüsusi fəaliyyətinə görə seçilən müəllim və məktəb direktorları təltif edilib.

Noyabrın 13-də Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva təhsilin vəziyyəti və tədris prosesi ilə yaxından tanış olmaq məqsədilə Ucar rayonuna səfər edib.

Məhəbbət Vəliyeva səfər çərçivəsində Ucar rayonu Heydər Əliyev adına Qazıqumlaq kənd 2 nömrəli tam orta məktəbə baş çəkib, adıçəkilən təhsil müəssisəsinin pedaqoji kollektivi ilə görüşüb. Nazir müavini dərs prosesini izləyərək şagirdlərin oxu bacarığı və mütailə vərdişləri ilə tanış olub.

Daha sonra cari tədris ilində Ucar rayonunda pedaqoji fəaliyyətə başlayan gənc müəllimlərlə görüş keçirilib. Görüşdə nazir müavini son illər müəllim əməyinin stimullaşdırılması istiqamətində görülən işlər və əldə edilən nailiyyətlərdən danışıb. Məhəbbət Vəliyeva müəllimlərə öz tapşırıq və tövsiyələrini verib, həmçinin onların suallarını cavablandırıb.

Ucar Rayon Təhsil Şöbəsində bu qurumun və 11 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzinin əməkdaşları ilə də görüş keçirilib. Görüşdə son illər ərzində təhsil sahəsində aparılan islahatları diqqətə çatdıran Məhəbbət Vəliyeva bir sıra tapşırıq və tövsiyələr verib.

Sonra görüş iştirakçılarının təklifləri dinlənilib, sualları cavablandırılıb.

Noyabrın 13-də Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva bölgələrə səfəri çərçivəsində Zərdab rayonunda olub.

Nazir müavini səfər çərçivəsində Zərdab rayonu Həsən bəy Zərdabi adına 1 nömrəli məktəb-liseydə olub. Ümumi təhsil müəssisəsində yaradılan şəraitlə tanış olan Məhəbbət Vəliyeva müəllim və şagirdlərlə görüşüb, onlarla səmimi söhbət aparıb.

Daha sonra 2019-2020-ci tədris ilindən rayonun ümumtəhsil məktəblərində işə başlayan gənc müəllimlərlə görüş keçirilib. Görüşdə Məhəbbət Vəliyeva məktəb-şagird-valideyn əlaqələrinin möhkəmləndirilməsi və pedaqoji əməkdaşlığın gücləndirilməsinin təhsil müəssisələrinin qarşısında duran vəzifələrdən biri olduğunu diqqətə çatdırıb, həmçinin müəllim peşəsinə marağın artmasından və müəllim əməyinə verilən dəyərdən danışıb.

Məhəbbət Vəliyeva çıxışının sonunda müəllimlərə öz tapşırıq və tövsiyələrini verib, onlara fəaliyyətlərində uğurlar arzulayıb.

Son illər ərzində təhsil sahəsində aparılan islahatlar görüş iştirakçılarının diqqətinə çatdırılıb.

Noyabrın 14-də Şamaxı rayonu Heydər Əliyev Mərkəzində Şamaxı, Qobustan və Ağsu rayon təhsil şöbələrinin hesabat tədbiri keçirilib. Tədbirdə Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Şamaxı, Qobustan və Ağsu rayon təhsil şöbələrinin müdirləri, təhsil işçiləri və məktəb direktorları iştirak ediblər.

Öncə Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov və digər qonaqlar ulu öndərin Heydər Əliyev Mərkəzinin qarşısında ucaldılmış abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri qoyublar.

Tədbirdə Şamaxı, Qobustan və Ağsu təhsil şöbələri müdirlərinin dərs ilinin prioritet fəaliyyət istiqamətləri üzrə Təhsil Nazirliyinin müvafiq əmrlərinin icra vəziyyəti ilə əlaqədar hesabat məruzələri dinlənilib.

Daha sonra Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva çıxış edərək hesabatlar barədə fikrini bildirib, həmçinin təhsil sahəsinə göstərilən diqqət və qayğıdan, qazanılan uğurlardan, qarşıda duran vəzifələrdən ətraflı bəhs edib.

Sonra qeyd olunan rayonların məktəb direktorları ilə görüş keçirilib. Görüşdə Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva ümumi təhsil müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılması ilə bağlı məsələləri iştirakçıların diqqətinə çatdırıb. Çıxışının sonunda Məhəbbət Vəliyeva təhsil işçilərinə tövsiyə və tapşırıqlarını verib, onlara uğurlar arzulayıb.

Sonda tədbir iştirakçıları ilə fikir mübadiləsi aparılıb, təkliflər dinlənilib və suallar cavablandırılıb.

Tədbirdə xüsusi fəaliyyətinə görə seçilən təhsil işçiləri təltif edilib.

## Sağlam təhsil - SABAH auditoriyasının açılışı olub

Noyabrın 14-də Azərbaycan Dövlət Pedaqoji Universitetində Təhsil Nazirliyinin SABAH qrupları və "Sağlam təhsil-sağlam millət" layihələrinin birgə əməkdaşlığı ilə Sağlam təhsil-SABAH auditoriyasının açılış mərasimi keçirilib.

Açılış mərasimində Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor Cəfər Cəfərov, SABAH qruplarının İcra komitəsinin rəhbəri Şahin Seyidzadə, Milli Təhsil Texnologiyaları Mərkəzinin direktoru Şamil Süleymanlı, universitetin əməkdaşları və digər şəxslər iştirak ediblər.

Mərasimdə qeyd olunub ki, ADPU-nun SABAH qruplarının ibtidai sinif müəllimliyi ixtisası üçün nəzərdə tutulan auditoriya "Sağlam təhsil - sağlam millət" layihəsinin konsepsiyasına uyğun olaraq təchiz olunub və tələbələrin yeni təhsil texnologiyalarından birbaşa istifadəsinə imkan verir. Sağlam təhsil şəraiti tədris tələbələrin təhsil keyfiyyətini yüksəldir, onlara yeni bilik və bacarıqlar aşılayaraq dərslərin sağlam təhsil modeli üzrə aparılmasına imkan yaradır. Sağlam təhsil auditoriyası SABAH tələbələri üçün müasir təhsil laboratoriyası qismində çıxış edir.

Qeyd edilib ki, hər iki layihənin 5 illik birgə fəaliyyəti çərçivəsində SABAH tələbələri üçüncü tədris ilinin qış tətili dövründə plandan kənar olaraq ümumtəhsil məktəblərində "Sağlam təhsil sinifləri"ndə təlimlərdə iştirak edir, 2 həftəlik təcrübəyə cəlb olunur, bu siniflərin quruluş və iş prinsipləri ilə yaxından tanış olurlar.

Bu müddət ərzində Azərbaycan Dövlət Pedaqoji Universitetinin ibtidai sinif müəllimliyi ixtisası üzrə təhsil alan 97 SABAH tələbəsi "Sağlam təhsil sinifləri"ndə pedaqoji təcrübəyə cəlb olunub.

Layihələrin birgə əməkdaşlığı əmək bazarının tələblərinə uyğun savadlı, bacarıqlı, hazırlıqlı mütəxəssisləri formalaşdırıb fiziki-psixi və mənəvi cəhətdən sağlam, yüksək təlim və yaradıcılıq qabiliyyətinə malik proqressiv vətəndaşın yetişməsinə imkan yaradır.




## Heydər Əliyev Mərkəzində "açıq dərs"

Şəki şəhərindəki Heydər Əliyev Mərkəzində şəhər 5 nömrəli tam orta məktəbin tarix müəllimi Bünyad İsmayılovun XI "b" sinfində "Milli demokratik hərəkat" mövzusunda "açıq dərs"i olub.

Dərsə başlamazdan əvvəl şagirdlər müəllimləri və məktəbin direktoru ilə birlikdə ulu öndər Heydər Əliyevin Mərkəzin qarşısında ucaldılmış abidəsi önünə gül dəstələri düzərək xatirəsini yad ediblər.

Çıxış edənlər XX yüzilliyin xalqımızın yaddaşında dövlətçilik, müstəqillik, ərazi bütövlüyü uğrunda mübarizə əsri kimi qaldığını bildirib, dirçəliş yolunda verilən qurbanlardan, Azərbaycana qarşı aparılan düşmənçilik siyasətinə etiraz əlaməti olaraq xalqımızın ayağa qalxmasından, baş qaldıran milli azadlıq hərəkatından danışdılar.

Dərsdə xüsusi vurğulanıb ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ideyaları 21-ci əsrdə onun layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

"Açıq dərs"də şagirdləri maraqlandıran suallar ətraflı cavablandırılıb.

Sonda məktəblilər Heydər Əliyev Mərkəzi ilə tanış olublar. Burada onlar Ulu Öndərin həyat və fəaliyyəti ilə bağlı fotoşəkillər və sənədlər barədə məlumatlandırılıblar.

**Mahal MƏMMƏDOV,**
*Şəki Şəhər Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## İmadəddin Nəsiminin 650 illik yubileyi qeyd olunub

Şabran şəhər T.Abbasov adına 1 nömrəli tam orta məktəbdə görkəmli Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi qeyd olunub.

Tədbirdə məktəbin müəllim və şagird heyəti, qonaq qismində digər məktəblərdən müəllimlər, rayon icra hakimiyyəti başçısının müavini F.Nuşiyev, təhsil şöbəsinin aparıcı məsləhətçisi G.Hüseynova iştirak edib.

Tədbiri giriş sözü ilə açan məktəbin direktoru F.Şamxalov bildirib ki, Nəsiminin yaradıcılığı Şərq xalqlarının mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutur. Bu yaradıcılıq uzun illərdən bəri elmi-pedaqoji fikrin diqqət mərkəzindədir.

Məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi A.Hacıyeva, tarix müəllimi R.Məmmədova Nəsiminin Azərbaycan xalqının XIV yüzillikdə ərsəyə gətirdiyi ən böyük mütəfəkkir şairlərdən və ideya fədailərindən biri olduğunu, onun daha çox Azərbaycan türkcəsində qələmə aldığı ölməz qəzəlləri ilə yaddaşlara həkk olunduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tədbirdə Nəsiminin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib və məktəblilər hazırladıqları ədəbi-bədii kompozisiya ilə çıxış ediblər.

**Gülər HÜSEYNOVA,**
*Şabran Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## "Hər zaman dalğalan"

Göygöl rayon Çaylı kənd tam orta məktəbində 9 noyabr – Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü ilə əlaqədar "Hər zaman dalğalan" adlı tədbir keçirilib.

Tədbirdə məktəbin şagirdləri, müəllim kollektivi və valideynlər iştirak ediblər.

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra Dövlət bayrağı şagirdlər tərəfindən səhnəyə gətirilib. Məktəbin direktoru Aqif Hüseynov hər kəsi Dövlət Bayrağı Günü münasibətilə təbrik edərək, bayrağın hər bir azərbaycanlının qürur mənbəyi olduğunu vurğulayıb. Üçrəngli bayrağımızın uca tutulmasının və daim ucalarda olmasının hər bir azərbaycanlının müqəddəs arzusu olduğunu bildirib.

Tədbirdə məktəbin şagirdləri hərbi-vətənpərvərlik mövzusunda müxtəlif səhnəciklər nümayiş etdirib, şeir oxuyub, mahnı səsləndiriblər.

**Raminə MƏMMƏDOVA,**
*Göygöl Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## Təbiəti sevənlər

Bərdə şəhər 5 nömrəli tam orta məktəbdə Təhsildə innovasiyalar üzrə III qrant müsabiqəsində qalib olan "Təbiəti sevənlər" layihəsi çərçivəsində "Ekologiyaya antropogen təsirlər" mövzusunda diskussiya təşkil edilib.

Tədbirdə məktəbin direktoru T.Həmidov, layihənin ekoloqu X.Musayev, layihənin eksperti Z.Əsədova, təlimçi - müəllim A.Həsənova, layihə rəhbəri Ş.Həsənova, məktəbin müəllim və şagirdləri iştirak ediblər.

İlk öncə "dəyirmi masa" ətrafında mövzu haqqında fikirlər dinlənilib, şagirdlərin hazırladıqları rəsm işləri nümayiş olunub, maraqlı təkliflər səsləndirilib.

Sonda ekspertlər tərəfindən fərqləndirilən 5 şagirdə hədiyyələr təqdim olunub.

**Zövqiyyə ƏSƏDOVA,**
*Bərdə Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# Müəllim cəmiyyət quruculuğunun mənəvi memarıdır

## *Göyçək Əliyeva:* "İlk gündən hər bir uşağa fərdi yanaşmağa üstünlük verirəm"

**Göyçək Əliyeva 1956-cı ildə Cəbrayıl rayonunun Soltanlı kəndində anadan olub. 1973-cü ildə Soltanlı kənd orta məktəbini bitirib. 1978-ci ildə M.Ə.Sabir adına Şamaxı Pedaqoji Texnikumunu bitirdikdən sonra Soltanlı kənd tam orta məktəbində 14 il ibtidai sinif müəllimi işləyib. İşləyə-işləyə də 1991-ci ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun ibtidai sinif müəllimliyi fakültəsini bitirib. Cəbrayıl rayonu erməni işğalçıları tərəfindən zəbt olunandan sonra Bakıya köçüb.**

**1993-cü ilin sentyabr ayından Abşeron rayonu Xırdalan şəhər 4 nömrəli tam orta məktəbdə ibtidai sinif müəllimi işləyir.**

*- Göyçək xanım, necə oldu ki, müəllimlik peşəsini seçdiniz, bu peşəyə marağı sizdə kim yaratdı?*

- İşlədiyim illər ərzində ömrünü şagirdlərə həsr edən müəllim olmuşam. Bu, mənim üçün gözəl bir hissdir. Peşəmlə də həmişə fəxr etmişəm. Amma bu peşəni seçməkdə ilk yol göstərənim böyük bacım Üzafə xanım olub. O, vaxtilə orta məktəbdə Azərbaycan dili və ədəbiyyat müəllimi işləyib...

*- Cəbrayıl rayonu erməni işğalçıları tərəfindən işğal olandan sonra 1993-cü ilin sentyabr ayından pedaqoji fəaliyyətinizi Abşeron rayonu Xırdalan şəhər 4 nömrəli tam orta məktəbində davam etdirməyə başlamısınız. Ayrı kollektiv, müəyyən çətinliklər... həmin günü necə xatırlayırsınız?*

- Maraqlı sualdır. Doğrusu, mehriban bir kollektivə düşməyim məni darıxmağa qoymadı. Ən əsası məktəb direktorunun, müəllim yoldaşlarımın isti münasibətləri sayəsində yaxşı müəllim olmağımı sübut edə bildim.

*- Müəllimlik peşəsinə olan sonsuz məhəbbətiniz öz yerində... İlk dərs günündə şagirdlərinizlə ünsiyyət qurmaqda çətinliyiniz oldumu?*

- Xeyr. Əvvəl bacımdan, sonra bu şərəfli peşəni vicdanla, ləyaqətlə daşıyan müəllimlərimdən bu peşəni sevməyi öyrənmişəm. Ona görə də tezliklə şagirdlərimin sevimlisinə çevrildim. Bu, əlbəttə, çalışqanlığın, prinsipiallığın nəticəsində oldu.

*- Müəllim cəmiyyət quruculuğunun mənəvi, əvəzolunmaz memarıdır desək, yanılmarıq. Sizcə, yaxşı müəllim nə deməkdir?*

- Bəli, müəllim ömrünü bir kainata da bənzətmək olar. Ömrünü, beynini, ruhunu elmi-əxlaqi biliklərlə qidalandırdığı, əlinə qələm verdiyi şagirdləri isə bu kainatın kiçik zərrələridir.

Məşhur pedaqoq V.A.Suxomlinski "Yaxşı müəllim nə deməkdir?" sualına belə cavab vermişdir: "Yaxşı müəllim tədris etdiyi fənnin elmini yaxşı bilir, həvəslə onun inkişaf üfüqlərini - yeni kəşfləri, tədqiqatları, nailiyyətləri izləyir. Yaxşı müəllim orta məktəbin tədris proqramında nəzərdə tutulanlardan daha çox bilir. Dərin bilik, geniş dünyagörüşü şagirdlər qarşısında elmin, biliyin, fənnin, tədris prosesinin cəzbedici qüvvəsini aça bilmək üçün vacibdir. Şagirdlər müəllimin simasında ağıllı, bilikli, düşüncəli, sənətinə vurğun bir insan görməlidirlər... Yaxşı müəllim psixologiya və pedaqogika elmlərini bilən, tərbiyə haqqında elmləri bilmədən uşaqlarla işləməyin mümkünsüzlüyünü hiss edən insan olmalıdır".



*- Orta məktəbdə sizə dərs deyən müəllimlərinizi necə xatırlayırsınız?*

- Deyirlər ki, hər kəsin taleyində müəllimin yeri var. Bu, həqiqətən belədir. Ona əlindən tutub əlifbanın ilk hərfini, "a-na" kəlməsini yazmağı, saymağı öyrədən ilk müəllimini kim xatırlamır? Məktəb partası arxasında keçən illərdə müəllimlər bizə qətrə-qətrə Vətənə, torpağa sevgi hissi aşılayırlar. Biz Azərbaycanın keşməkeşli tarixi, ana yurdumuzun təbiətinin gözəllikləri, xalqımızın dostları və düşmənləri barədə müəllimlərimizdən çox şey öyrənmişik. Mən də müəllimlərimdən, o cümlədən Səyyarə xanımdan, Arif müəllimdən çox dəstək almışam.

*- Sizin də dərs dediyiniz şagirdlər arasında dərsdən yayınan, nadinc olanlar yəqin ki, var. Dərsdə belə şagirdləri ələ almaq üçün hansı metodlardan istifadə edirsiniz?*

- İlk gündən hər bir uşağa fərdi yanaşmağa üstünlük verirəm. Bir də şagirdlər arasında heç bir fərq qoymuram.

Sinif üzrə maraqlı tədbirlər təşkil edirəm. Tədbirdə hər şagirdə qabiliyyətinə görə tapşırıq verirəm. Eyni zamanda, zəif oxuyan şagirdlərin valideynləri ilə daim əlaqə saxlayıram. Nəticədə, sinfin ən passiv uşağı, sonrakı günlər sinfin ən nümunəvi şagirdi olur.

*- Fənn müəllimlərindən fərqli olaraq sinif müəllimlərinin zəhməti daha böyükdür. Dərs dediyiniz şagirdləriniz bu gün sizinlə əlaqə saxlayırlarmı?*

- Əlbəttə, əlaqə saxlayırlar. Onlardan rəhbər vəzifələrdə çalışanlar da var, məni unutmurlar. Zəng edir və işlədiyim məktəbdə mənimlə görüşürlər.

*- Təcrübəli bir müəllim kimi indiki gənc müəllimlərə hansı məsləhətləri verərdiniz?*

- İlk öncə gənc müəllimlərimiz cəmiyyətdə tanınmış müəllim olmaq üçün öz üzərlərində ciddi çalışmalıdırlar.

Bir də hər bir müəllimin özünün pedaqoji taktikasının olması labüddür. Müəllimi konkret olaraq hansısa metoddan istifadəyə məcbur etmək, qarşısına tələblər qoymaq mümkün deyil. Belə olarsa, dərsdən hansısa səmərəni gözləmək yersizdir. Səmərə o zaman əldə olunur ki, müəllim dərs prosesinə yaradıcılıqla yanaşaraq, təlim prosesini şagirdlərinin qavrama, dərketmə səviyyəsində qursun, yaradıcı işləməyə şəraiti təmin etsin, müstəqillik vərdişləri aşılasın və təfəkkürün inkişafına yol açsın.

**Aysel TAHİROVA,**
*Abşeron Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

**Səhifəni hazırladı:** *Şakir CƏFƏROV*





⇦ Əvvəli səh.1

Samirə KƏRİMOVA

# Hərəkətdə təlim şəraitində tədris

## "Sağlam təhsil-sağlam millət" layihəsi əhatə dairəsini genişləndirir

İlk ildə təhsilalanların sağlamlığının qorunması və təlim nailiyyətlərinin yüksəldilməsi məqsədi ilə Bakı və Sumqayıt şəhərlərinin 6 tam orta məktəbinin 15 birinci sinfində "Sağlam təhsil-sağlam millət" layihəsinin tətbiqinə başlanılsa da onun əhatə dairəsi illər ötdükcə genişlənməkdədir. Belə ki, hazırda 39 ümumtəhsil müəssisəsində 170 "Sağlam təhsil sinfi" fəaliyyət göstərir. Layihə tətbiq dairəsini genişləndirərək məktəbəqədər təhsil pilləsini də əhatə edir və 2018-2019-cu tədris ilindən Təhsil nazirinin müvafiq əmri ilə "Sağlam təhsil-sağlam millət" layihəsi tətbiq edilən ümumtəhsil müəssisələrində məktəbəhazırlıq qrupları fəaliyyət göstərir.

Layihənin tətbiq olunduğu məktəblərdə aparılan tibbi, psixoloji, sosioloji, pedaqoji monitorinqlərin nəticələri göstərir ki, sağlam təhsil texnologiyaları təhsilalanların fiziki-psixi inkişafına, təlim nailiyyətlərinin yüksəldilməsinə, emosional-psixoloji vəziyyətinin yaxşılaşmasına səmərəli şərait yaradır.

Mütəxəssislər qeyd edirlər ki, təhsil müddətində oturaq həyat şəraitinin olması şagirdlərin fiziki və psixoloji sağlamlığında xoşagəlməz fəsadlar törədir. Belə ki, oturaq həyat tərzi uşaqların normal inkişaf etməsinə və sağlam böyüməsinə mənfi təsir göstərən ən başlıca səbəbdir. Mövcud təhsil texnologiyaları məktəblilərin oyaq vaxtının 50-70 faizini oturaq vəziyyətdə keçirməyə məcbur edir. Həmçinin, aparılan araşdırmalar onu da göstərir ki, uşaqlar məktəbi qurtaranda onlarda bir sıra məktəb xəstəlikləri olur. Məsələn, məktəbə gələn uşaqlarda fiziki inkişaf çatışmazlıqları qamət, görmə pozğunluqları əgər hardasa 25-30 faiz arasında rast gəlinirdisə, artıq məktəbi bitirənlərin 45-50 faizində belə bir problemlərə rast gəlinir. Onu da qeyd edək ki, bu problem təkcə Azərbaycanda deyil, bütün dünyada mövcuddur. Təbii ki, bunun müxtəlif səbəbləri var. Ən başlıca səbəb kimi isə uşaqların məktəb tədrisinə başladıqdan sonra onların oturaq həyat tərzinə keçmələri, sinif otaqlarının çoxunda işıqlandırmanın zəif olması, partaların uşaqların boyuna uyğun olmamasıdır.

"Sağlam təhsil sinif"lərində məhz şagirdlərin belə problemlərlə üzləşməmələri üçün sağlamlıqları, onların dərsi daha yaxşı mənimsəməsi məsələləri xüsusi diqqətdə saxlanılır. "Sağlam təhsil sinif"ləri tibbi-gigiyenik tələblər baxımından tərtib və təchiz edilib. Sinif otaqlarındakı digər avadanlıqlar və ləvazimatlar da layihəyə uyğun hazırlanaraq yerləşdirilib.

Elə müsahiblərimiz də layihənin üstünlüklərindən, onun şagirdlərin istər sağlamlıqlarının qorunması, istərsə də daha keyfiyyətli təhsil almalarındakı əvəzsiz rolundan danışaraq uşaqların tədris prosesi zamanı özlərini daha komfortlu hiss etdiklərini, sərbəst və yüksək təlim nəticələrinə malik olduqlarını qeyd edirlər.

### Sağlam tədris şəraiti təhsilalanların fiziki inkişafına müsbət təsir göstərir

"Sağlam təhsil-sağlam millət"in tibbi məsələlər üzrə koordinatoru, ATU-nun uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent *Şəhla Balayeva* məsələyə tibbi baxımından yanaşaraq bildirir ki, belə bir layihənin reallaşdırılması zərurəti uşaq və yeniyetmələr arasında bir sıra patologiyaların - fiziki inkişaf, qamət və görmə pozulmalarının artma tendensiyasının müşahidə olunması ilə bağlı idi. Həmin patologiyalar hələ XIX əsrdən başlayaraq məktəb xəstəlikləri kimi qeyd edilir. Hazırda oturaq həyat tərzinin uşaq və yeniyetmələr arasında geniş yayılması, məktəb tədrisinin intensifikasiyası ilə əlaqədar uşaqların məktəbdə daha çox vaxt keçirməsi və evdə hazırlığa sərf edilən vaxtın artması mənfi amillər kimi problemin daha da dərinləşməsinə səbəb olur. Elə "Sağlam təhsil sinif"lərinin məqsədi də məktəb şəraitində şagirdlərin sağlamlığına mənfi təsir göstərən amillərin aradan qaldırılması, hərəki fəallığın artırılması, təhsilalanların sağlamlığının qorunması baxımından əlverişli mühitin yaradılmasıdır. Bu siniflərdə tədris qismən ayaq üstə keçirilir. Belə tədris isə uşaqlarda hipodinamiyanın profilaktikası məqsədi daşıyır və uzun müddət oturaq vəziyyətlə əlaqəli orqanizmdə baş verən müxtəlif patologiyaların qarşısının alınmasında böyük rol oynayır.

### 15 dəqiqədən bir mikropauzalar

Şəhla Balayeva qeyd edir ki, "Sağlam təhsil sinfi" uşaqların boy göstəriciləri nəzərə alınmaqla təlim üçün əlverişli xüsusi mebellə: oturaq və ayaq üstə iş üçün masalarla təchiz olunub. Şagirdlər dərsin bir hissəsində ayaq üstə, digər hissəsində isə oturmuş vəziyyətdə işləyirlər. Hər 15 dəqiqədən bir mikropauzalar verilir və bu zaman uşaqların fiziki hərəkətlər etməsi statik gərginliyin aradan qalxmasına və zehni iş qabiliyyətinin bərpasına kömək edir. Mikropauzalar zamanı həm göz əzələləri, həm də gövdənin yuxarı hissəsinin əzələlərini məşq etdirən hərəkətlər edilir, statik iş dinamik fəaliyyətlə əvəz olunur. Sonra uşaqlar yerlərini dəyişməklə (oturaq-ayaqüstü) yeni iş pozası almış olurlar. Beləliklə, dərs günü ərzində ənənəvi dərs formasından fərqli olaraq eyni əzələ qrupuna daimi iş düşmür ki, bu da şagirdlərin zehni və fiziki iş qabiliyyətinin uzun müddət yüksək səviyyədə saxlanılmasına xidmət edir. Bundan əlavə, bu siniflərin təchizatı və dərs prosesi elə qurulub ki, məktəbdə keçirdiyi müddət ərzində (oyaqqalma vaxtının 25 faizi) şagirdlər oturaq həyat tərzindən uzaqlaşaraq daha fəal və dinamik olurlar. Şagird masalarının uşaqların boylarına uyğun tənzimlənməsi, masanın işçi səthinin 16 dərəcə bucaq altında olması iş zamanı gövdənin yuxarı hissəsinin və başın həddən artıq əyilməsinin qarşısını alır ki, bu da qan dövranının normal olmasına, orqan və toxumalarının yaxşı qidalanmasına, kifayət qədər oksigen təchizatına kömək edir, gözə düşən gərginliyi azaldır. Sinifdə uşaq sayı sinif sahəsinə görə tənzimlənməsi (1 şagirdə 2-2.5m2) dərs zamanı sinif havasının mikroorqanizmlər və zərərli qazlarla həddən artıq çirklənməsinin və oksigen aclığının, işıqlanma səviyyəsinin 300-500 lk olması isə iş zamanı görmə orqanında gərginlik yaranmasının qarşısını alır.

Həkimin sözlərinə görə, layihənin həyata keçirildiyi müddət ərzində "Sağlam təhsil sinif"ləri ilə paralel olaraq ənənəvi siniflərdə təhsil alan uşaqlar daim müşahidə və müayinə edilib. Müayinələrin nəticələri göstərir ki, "Sağlam təhsil sinif"lərində yaradılan sağlam tədris şəraiti təhsilalanların fiziki inkişafına müsbət təsir göstərir. Belə siniflərdə təhsil alan məktəblilərdə əvvəldən yaranmış bir sıra sağlamlıq problemlərinin, məsələn, görmə problemləri, qamət pozulmaları, fiziki inkişaf problemlərinin azalması, iş qabiliyyətinin yüksək səviyyədə saxlanılması, onların intellektual və fiziki cəhətdən daha yaxşı inkişaf etməsi və emosional vəziyyətlərinin yaxşılaşması müşahidə edilir. Buradakı uşaqların təlim nailiyyətləri xüsusilə daha yüksək olur.

### "Sağlam təhsil sinif"lərinin ilk məzunları

Bakıdakı Mehdi Hüseynzadə adına 19 nömrəli tam orta məktəbin direktoru *Kərim Abidi* söyləyir ki, "Sağlam təhsil sinif"lərinin digər siniflərdən fərqli cəhətlərindən biri də şagirdlərin dərs prosesində fiziki və zehni cəhətdən daha aktiv olmalarıdır.

Məlumat üçün bildirir ki, 1649 şagirdin təlim-tərbiyəsi ilə 123 müəllimin məşğul olduğu təhsil müəssisəsində "Sağlam təhsil-sağlam millət" layihəsi çərçivəsində 3 "Sağlam təhsil sinfi" yaradılıb. 2018-ci ildən məktəbdə məhz belə sinifdə təhsil almaq istəyənlər üçün 1 məktəbəhazırlıq qrupu fəaliyyət göstərir.

Övladını birinci sinfə gətirən valideynlər həmin siniflərdəki təlim şəraitini, uşaqlarının bilavasitə sağlamlığına yönələn mühiti gördükdən sonra onların məhz burada təhsil almalarını istəyirlər. Bu siniflərə valideynlərin marağı getdikcə artır. Artıq digər valideynlər də övladlarını belə siniflərdə oxutdurmaq istəyirlər.

Direktor qeyd edir ki, müasir dövrümüzdə informasiya texnologiyalarından uşaqların daha çox istifadə etməsi, təhsil müddətində, eləcə də evdə oturaq həyat tərzi keçirmələri, habelə digər faktorlar böyüməkdə olan gənc nəslin sağlamlığında ciddi fəsadlara gətirib çıxara bilər. Kərim Abidi Təhsil Nazirliyinin bu məsələləri diqqətdə saxlamasını və "Sağlam təhsil-sağlam millət" layihəsi çərçivəsində "Sağlam təhsil sinif"lərinin yaradılmasını uşaqların sağlamlığı ilə bağlı problemlərin həlli istiqamətində atılan ən mühüm addımlardan biri kimi dəyərləndirir: "Bu, təhsilalanların sağlamlığını qoruyan bir layihədir. Artıq bizim məktəbdə bu il ibtidai təhsil pilləsini başa vurmuş "Sağlam təhsil sinif"lərinin ilk məzunları var. Müşahidələrimiz onu göstərir ki, bütün hallarda bu şagirdlər həm görkəm, qamət və boyları baxımından digər həmyaşıdlarından yaxşı mənada fərqlənirlər".

**İlk ildə təhsilalanların sağlamlığının qorunması və təlim nailiyyətlərinin yüksəldilməsi məqsədi ilə Bakı və Sumqayıt şəhərlərinin 6 tam orta məktəbinin 15 birinci sinfində "Sağlam təhsil-sağlam millət" layihəsinin tətbiqinə başlanılsa da onun əhatə dairəsi illər ötdükcə genişlənməkdədir. Belə ki, hazırda 39 ümumtəhsil müəssisəsində 170 "Sağlam təhsil sinfi" fəaliyyət göstərir.**

### Şagirdlər yorulmur, əksinə, dərslərini daha rahat şəkildə mənimsəyirlər

Bu layihənin uğurla həyata keçirilməsi, qarşıya qoyulan hədəflərə nail olunması təbii ki, müəllimlərin öz işinə necə yanaşmasından asılıdır. "Sağlam təhsil sinif"lərindəki təlim-tərbiyə prosesi yeni düşüncə tərzinə malik, buradakı mövcud təhsil texnologiyalarından səmərəli istifadə etməyi bacaran, uşaqların fiziologiyasını yaxşı bilən, eyni zamanda təlim nailiyyətlərinin yüksəldilməsində bilik və bacarığını əsirgəməyən, onlara qarşı daha həssaslıq və səbrlilik nümayiş etdirən yaradıcı müəllimlərin olmasını tələb edir. Və nə yaxşı ki, məhz burda dərs deyən müəllimlər də elə tam bu meyarlara uyğun təcrübəli təhsil işçiləridir. Bakıdakı 19 nömrəli tam orta məktəbin "Sağlam təhsil sinfi"nin ibtidai sinif müəllimi *Sevil Qəmbərova* da belələrindəndir. Layihənin tətbiq edildiyi vaxtdan "Sağlam təhsil sinfi"ndə dərs deyir. Artıq bu sinfin birinci buraxılışını edib. İndi isə birincilərə dərs deyir. Layihə ilə bağlı keçirilən təlim və seminarlarda iştirak edib, bilik və bacarığını mükəmməlləşdirib, yenilikləri öyrənib və bu sinfin tələblərini, məqsədini yaxşı bilir.

"Sağlam təhsil sinfi"nin ənənəvi sinif otaqlarından ilk olaraq öz xüsusi tərtibatı ilə fərqləndiyini söyləyir: "İlk vaxtlar burada dərs dediyim zaman çox həyəcanlanırdım. Birincilərimin bu yeni tərtibata malik sinfi gördükləri zaman üzlərindəki ifadə heç vaxt yadımdan çıxmaz. "Sağlam təhsil sinfi"nə ayağını qoyan andan sanki insan özünü bambaşqa bir aləmdə hiss edir, özündə bir rahatlıq tapır. Sinif otağının küncü yoxdur, hər tərəf dairəvidir, hündür və oturacaqlı masalar, divarda olan ağacın təsviri daha çox yaşıllığın olması, tavan və divarda çəkilmiş buludların təsviri, tavandakı işıqlar isə sanki balacaların sehrli bir aləmə, daha dəqiq desək, onların təbiətin qoynuna səyahətinə bir addımın qalmasından xəbər verir. Mənim də bu gözəl təhsil mühitində balacalarla işləməyim xüsusilə zövqvericidir".

Sevil müəllim deyir ki, sağlam olmaq üçün hərəkət etməyin vacibliyini məhz bu siniflərdə açıq görmək olur.

Burada aparılan dərs prosesi haqqında bizdə tam təsəvvürün formalaşması üçün müəyyən məsələləri diqqətə çatdırır. Bildirir ki, "Sağlam təhsil sinfi"ndə öyrənmə hərəkətdə baş verir. 15 dəqiqədən bir hündür masalarda ayaq üstə dayanan uşaqlar oturacaqlı masalara, oturacaqlı masalarda əyləşən uşaqlar hündür masalara keçməklə yerlərini dəyişirlər. Bu da uşaqlarda qan dövranının yaxşılaşmasını, dayaq-hərəkər aparatının düzgün inkişafını təmin edir. Göz əzələlərini və dayaq-hərəkət aparatını məşq etdirən Dr.Bazarnının Vizual Vestibulyar Məşqçi Sistemi trenajorunda şagirdlər 1-ci siqnalda yanan işıqları əl çalmaqla tuturlar. Həmin zaman uşaqlarda yan görmənin və reaksiyanın inkişafı, qan dövranının aktivləşməsi və dayaq- hərəkət aparatının güclənməsi baş verir. Növbəti 15 dəqiqədə 2-ci siqnal çalınır, tavanda öz əksini tapan Universal Simvollar Sxemi üzrə məşğələ keçirilir. Balacalar göz və əlləri ilə nişan alaraq oxlar istiqamətində də müəyyən olunan sxem üzrə məşğələni davam etdirib yerlərini dəyişirlər.

Buradakı masalar da sagirdlərin boyuna uyğun tənzimlənir. Sinifdə didaktik asqılar var ki, oraya mövzuya uyğun şəkillər, materiallar asılır və sonra götürülür. İbtidai siniflərdə şagirdlərdə təlimə marağı yüksəltmək, onlarda yaradıcı təfəkkürü inkişaf etdirmək hazırda ən aktual məsələlərdəndir. "Sağlam təhsil sinfi" də məhz uşaqların yüksək təlim və yaradıcılıq nailiyyətlərinə nail olmaq üçün inteqrativ dərslərə daha çox yer verməsi ilə fərqlənir. Dərslər demək olar ki, oyunlar üzərində qurulur. Bu da dərsin daha maraqlı keçməsinə, eyni zamanda tez mənimsənilməsinə öz təsirini göstərir. Tənəffüs zamanı oğlanlar xüsusi idman avadanlıqlarında məşq edir, qızlar üçün də oyunlar təşkil olunur.

Sevil müəllimin fikrincə, hərəkətli tədris mühitində şagirdlər, demək olar ki, yorulmur, əksinə, daha fəal olur, dərsləri rahat şəkildə mənimsəyirlər.

"Sağlam təhsil-sağlam millət" layihəsində uşaqların fiziki cəhətdən sağlam böyüməsi, idrak prosesinin inkişafı, estetik zövqünün düzgün formalaşması bir-biri ilə vəhdət təşkil edir.

### Övladları "Sağlam təhsil sinfi"ndə təhsil alan valideynlər razıdırlar

*Ülviyyə Məmmədova* 19 nömrəli tam orta məktəbin tərbiyə işləri üzrə direktor müavinidir. İxtisasca biologiya müəllimidir. Həm də valideyndir. Artıq 2-ci övladı İsmayıl da "Sağlam təhsil sinfi"ndə oxuyur. Deyir ki, böyük oğlu Elxanın buradakı tədrisindən o qədər razı qalıb ki, ikincisini də məhz bu sinifə qoyub: "Hər bir valideyn kimi mən də uşaqlarımın oxuduğu müddətdə keyfiyyətli təhsil almalarını, təlim nailiyyətlərinin yüksək olmasını istəyirəm. Eyni zamanda, övladlarımın sağlam böyümələri də mənim üçün vacib şərtdir. Ona görə oğlanlarımın hər ikisinin məhz bu sinifdə təhsil almalarını istədim. Burada birbaşa şagirdlərin sağlamlıqlarına yönələn mühit, müəllimin şagirdlərə olan münasibəti, tədris prosesi məni tamamilə qane edir. Həftənin istirahət günlərində usaqların ev tapşırıqları ilə yüklənməməsini də dəstəkləyirəm. Bu siniflərdə uşaqlar daha rahatdırlar və öz fikirlərini söyləməkdə sərbəstdirlər. Ovladlarımı bu sinfə qoymaqla heç də yanılmadığımı düşünürəm. Burada həm şagirdlərin sağlamlığına, həm də təhsilinə xüsusi diqqət ayrılır".

*İlhamə Cabbarova, Məryəm Babayeva, Minayə Kərimli...* Bu siyahını övladları "Sağlam təhsil sinfi"ndə təhsil alan digər valideynlərin adlarını sadalamaqla artırmaq olar. Ancaq düşünürük ki, buna ehtiyac yoxdur. Söhbətləşdiyimiz valideynlərin hamısı belə təhsildən razıdırlar, çünki burada onların uşaqlarının yüksək təhsil almaları ilə yanaşı, sağlamlıqları da tam diqqətdə saxlanılır.

# "Sevmədiyin peşədə heç zaman uğur qazana bilməzsən"



## *İlyas Musayev:* "Aşbazlıq həyat tərzimdir"

**Jalə MÜTƏLLİMOVA**

Övladına ali təhsil vermək, nüfuzlu məktəblərdə oxutmaq, köksünün qabardığını hiss eləmək bizim böyük, bəzən də əlçatmaz arzularımızdan olub. Övladına hər şeyin ən yaxşısını yedirtmək, geydirmək, gəzdirmək... Fərqindəsinizmi, hər biri valideyn istəyindən doğan arzudur. Bəzən bu arzuların arasında bir övlad etirazı da olur. Mən onu yemirəm, bunu geymirəm, gəzməyə filan yerə getmirəm və sair... Hər biri və ən vacibi, mən filan yerdə oxumayacağam, mən filan peşəni seçməyi düşünürəm. Bəzən azərbaycanlı ailələrində bu az qala faciəyə çevrilir. Ata-ana övladın ali təhsil almaq istəməməsindən stress də yaşayır deyə bilərik. Ancaq bir müddət sonra baxırsan ki, ailənin uğur qazanan övladlarından biri məhz o uşaq olur, peşəsinin ardınca gedən o uşaq... Bu gün sizə təqdim edəcəyimiz İlyas Musayev də belə gənclərdən biridir. İlyas Musayev Qax rayonunda anadan olub. Aşbaz olmağa həvəsinin uşaqlıqdan yarandığını deyir.

### Altı yaşlı aşbaz...

...Altı yaşımda anamın yeməkləri necə bişirməsi ilə maraqlanırdım. Hərdən ona təklif edirdim ki, ana, belə elə, filan cür hazırla bu dəfə, filan şey də qat, görək onda necə olacaq yeməyin dadı. Həmin illərdə bu, bir uşağın yemək marağı, zövqü, həvəsi idi. Təsəvvür edirsinizmi, heç məktəbə də getmirdim, oxumaq, yazmaq da bilmirdim, anamdan, nənəmdən ədvaların adını soruşurdum. Sonra o adları tələffüz eləməkdə çətinlik çəksəm də, yadımda saxlamağa çalışırdım, əzbərləyirdim. Hamı bu marağıma, həvəsimə gülümsəyirdi. Hələ mənim anama yemək bişirəndə etdiyim tövsiyələrə, təkliflərə evimizdəkilər ürəkdən gülürdülər. Fikir verirdim, anam dediklərimin bəzisinə əməl edirdi. Düzü, pis də alınmırdı dadı. Yeməkdəki fərqli dadı hiss edib bəyənəndə, deyirdilər dəyişikdi, yaxşıdır, onda anam gülüb cavab verirdi ki, İlyasın təklifidir. Həddən artıq sevinirdim. Amma hələ anlamırdım ki, bu, gələcəkdə həm də mənim həyat tərzim olacaq...

Anama kömək edə-edə içimdə anlamadığım bir həvəs var idi. Deyirdim, görəsən, nə zamansa özüm yemək hazırlaya biləcəmmi? Və ya anamın etdiyini mən etmiş olsam, bunu evdə bəyənərlərmi? Yəni ailəmiz üçün yemək bişirməyi düşünürdüm. Bunu onlara bir gün sürpriz kimi etməyi planlaşdırırdım.

### Sürhüllü...

İlk sürpriz yeməyimi bişirdim. Sürhüllü bizim bölgənin - Qaxın seçilmiş yeməyidir. Mən ilk dəfə ailəmə bu yeməyi hazırladım. İlk olduğuna görə həyəcanlı idim. Mənə nə qiymət veriləcək, necə qarşılanacaq deyə düşünürdüm. Düzü, gözlənildiyindən də yaxşı qarşıladılar. Hətta elə bildilər kimdənsə xahiş etmişəm ki, bunu mənim üçün etsin. Sonra mətbəxin vəziyyətinə baxıb əmin oldular ki, özüm etmişəm. İlk yeməyə görə çoxlu təşəkkür, bir də ailə hədiyyəsi almışdım. İlk dəfə valideynlərim dedilər ki, sən yaxşı aşbaz olacaqsan...

### Peşəkar təhsil...

Peşəkar aşbaz təhsili almağa 2018-ci ildə qərar verdim. Bir balaca araşdırma apararaq öyrəndim ki, həm ailəmin, həm də özümün büdcəmə uyğun harada təhsil ala bilərəm. Baxdım ki, 5 nömrəli Peşə Təhsili Liseyi mənim təhsil almağım üçün son dərəcə uyğun bir yerdir. Düzü, bu sizə bir qədər qəribə də gələ bilər. Mən sənədlərimi verməzdən əvvəl gəlib məktəblə maraqlandım. İstədim binalim ki, hansı şəraitdə təhsil alacağam. Binanın təmiri, tələbələrə münasibət necədir? Bu mənim üçün son dərəcə önəmli idi. Burada gördüyüm şərait xoşuma gəldi. Hətta qəbul edilib-edilməyəcəyimi bilməyən müəllimlərin adama münasibəti də fərqli, humanist idi. Sənədlərimi təqdim etdim, "ASAN xidmət" vasitəsi ilə qeydiyyadan keçdim və məktəbə qəbul olundum. Gözlədiyimdən də yaxşı təhsil verirlər. Eyni zamanda, Bakıdakı prestijli otellərdə, restoranlarda təcrübə keçirsən. Adla deyilən, tanınan ustaların yeməkləri necə hazırladığını müşahidə edirsən. Bəzən onlara köməkçi də olursan. Hətta çox yaxşı yerlərdən iş təklifləri də gəlir. Təbii ki, bacarıqlısansa və ən vacibi peşəni sevdiyini hiss etdirə bilirsənsə. Məndə də belə oldu, alındı.

### Ailəm aşbaz olmağıma etiraz etmədi...

...Ancaq bilirəm, elə ailələr var etiraz edirlər. Qınamıram, övladlarının gələcəyindən narahat olurlar. Əslində, bu, başqa millətlərdə olmayan çox vacib bir keyfiyyətdir. Sadəcə, valideynlərimizə demək istəyərəm ki, narahat olmasınlar, bizə, övladlarına düzgün tərbiyə vermək elə ən yüksək ail təhsil almaq kimi bir şeydir. Çünki düzgün tərbiyə olunan uşaqlar heç zaman ailələrini yanıltmaz, onlara olan ümidi puça çıxarmaz və kimsəni üzüqara etməz. Bir də vacib bir məsələ, insan sevmədiyi peşədə heç zaman uğur qazana bilməz. Məsələn, mən yaxşı bir hüquq təhsili də ala bilərdim. Dərs göstəricilərim son dərəcə yaxşı idi. Amma əminəm ki, heç zaman tanınan, seçilən hüquqşünas olmazdım. Eyni qaydada əminəm ki, mən Azərbaycanda adla deyilən aşbazlardan olacağam, çünki gördüyüm hər işi sevirəm. Hətta hazırladığım yeməklərə yeni dad əlavə edib, öz yanaşmamı təqdim etmək bacarığım var.

### "British Council"in vasitəçiliyi...

Təhsilimə başladığım qısa zaman müddətində aşbazlığa sevgim müəllimlərimin də diqqətini çəkmişdi. O üzdən liseydə müxtəlif layihələrə cəlb olunurdum. Ümumiyyətlə, aşbazlıq son dərəcə zövqlü işdir. Bu işdə sənə dəstək verirlərsə, ikiqat zövqlü olur. Qısa bir dönəmdə mən liseyimizdə "British Council"in vasitəçiliyi ilə keçirilən layihə çərçivəsində bir neçə prestijli otelə təcrübəyə göndərildim. Təbii ki, dil faktoru da önəmli sayılırdı bu seçimdə. Sizə bunu da deyim ki, seçimlər də o qədər asan olmur. Bir neçə tələbə məktəb və layihə rəhbəri tərəfindən seçilir, müvafiq otelə göndərilir. Orada sən müsahibədən keçməlisən. Həm şəxsi, həm də peşəkar keyfiyyətlərinə diqqət edilir. Mən də belə seçilmişdim. Görünür, aşbazlığa sevgi məni seçilənlərdən biri etmişdi. Beləcə, təcrübəçi aşbaz kimi fəaliyyətə başladım.

### Barbekyü şefi...

Məlum layihə çərçivəsində fəaliyyət göstərdiyim müddətdə xeyli təcrübə topladım. Sonra mənə orada qalıb işləmək təklif edildi. Başqa yerləri seçmək imkanım yaranmışdı deyə, bir qədər düşünmək, götür-qoy etmək lazım gəldi. Müqayisə etdim, yaradılan şəraitə, edilən əməkhaqqı təklifinə baxdım. Təkliflər arasından ən uyğun olanını seçdim. İndi böyük bir restoran şəbəkəsində barbekyü şefi kimi çalışıram, yetərincə yüksək maaşım var. Bu vəsaitin bir qismini peşəmin inkişafına, bir qismini dil biliklərimin artırılmasına, qalanını isə özümün və ailəmin şəxsi işlərinə sərf edirəm. Özünü ən gənc yaşlarından maddi cəhətdən təmin etməyi bacarmaq mənim üçün həm də bir mənəvi zövqdür. Bunu bütün gənclərə arzulayıram...

# Əhməd Cavadın həyat və yaradıcılığının tədrisi



**Tamilla ZEYNALOVA,**
*132 nömrəli tam orta məktəbin təqaüdçü dil-ədəbiyyat müəllimi*

30-cu illər repressiyasına xalqımızın ən istedadlı ziyalılarının, söz ustalarının, müstəqilliyimiz uğrunda böyük mübarizlərin məruz qalmaları hamıya məlumdur. Bu repressiya ədəbiyyatımızın, mədəniyyətimizin inkişafına ağlagəlməz zərbələr vurmuşdur. Hüseyn Cavid, Mikayıl Müşfiq, Əhməd Cavad, Vəli Xuluflu, Salman Mümtaz və başqa yazıçılarımızla sonradan gələn nəsillər arasındakı varislik tellərini amansızcasına kəsib doğramışdır. Həmin sənətkarlar arasında ən çox bəxti gətirməyənlərdən biri Əhməd Cavaddır. Sənət təşnəsi ilə yanıb-yaxılmaq, sözün mahir ustası olmaq, xeyriyyəçilik əməlləri ilə xalqına fayda vermək, əsərləri ilə oxucuların qəlbində özünə əbədi heykəl ucaltmaq səadəti yalnız o sənətkara qismət olur ki, yaşadığı torpağına, vətəninə, millətinin müstəqilliyi uğrunda mübarizəyə qırılmaz tellərlə bağlı olsun. Əhməd Cavad məhz belə həmişəyaşar sənətkar olmuş, olaraq qalacaqdır.

Ə.Cavad 1892-ci il mayın 5-də Gəncə qəzasının Şəmkir dairəsi, Seyfəli kəndinin Mehrəli tirəsində ruhani ailəsində dünyaya gəlmişdir. Atası Məmmədəli axund olub. Azərbaycanın görkəmli tarixi simalarından biri kimi tanıdığımız Cavadxan axund Məmmədəlinin atası ilə yaxın idi və ailədə həmişə onun haqqında xoş söhbətlər gedərdi; mərdliyi, igidliyi, xalq yolunda qəhrəmanlıqla həlak olması dönə-dönə xatırlanırdı. Elə bu hörmət və ehtiramın əlaməti kimi axund Məmmədəli oğlunun adını Cavad qoymuşdu. Cavad beş yaşına çatmamış atası dünyasını dəyişdi. O, anası Yaxşı xanımın ümidinə qaldı. İlk təhsilini molla məktəbində almış, üç il orada oxumuşdur. Sonrakı təhsilini Gəncədə Müsəlman Ruhani Seminariyasında almış (1906-1912-ci illər) və oranı müvəffəqiyyətlə bitirmişdir. 1913-cü ildə Zaqafqaziya şeyxülislamı Pişnamazzadənin imzası ilə ona müəllimlik şəhadətnaməsi verilib. Həmin ildə Şəmkir, Gədəbəy, Zaqatala və Gəncədə fasilələrlə dərs demişdir. Birinci Cahan müharibəsi başlayanda müharibəyə getmiş, dörd il cəbhədə müxbir, xeyriyyə cəmiyyətinin üzvü, katibi, bəzən də sədr müavini kimi fəaliyyət göstərmişdir. O, Şimali Qafqazda, Dağıstanda, Batumda, Qarsda, Ərdəhanda, Gürcüstan və Türkiyədə olmuşdur. Ən çox türk xalqları yaşayan bölgələrə gedərək onlara maddi və mənəvi yardım göstərmişdir.

Müharibədən sonra müəllim işləməklə yanaşı, həm yaradıcılıqla məşğul olmuş, həm Azərbaycan Demokratik Cumhuriyyətinin yaradılmasında yaxından iştirak etmiş, həm də onun fəal üzvlərindən olmuşdur.

Əhməd Cavad 1920-ci ildə Quba qəzasının Xuluq kəndində müəllim təyin olunur. 1922-ci ilin yayına kimi burada türk və rus dillərindən dərs deyir.

O, 1922-ci ildə ali məktəbə daxil olmaq məqsədi ilə Bakıya gəlir. Azərbaycan Ali Pedaqoji İnstitutuna daxil olub, 1926-cı ildə oranı bitirib. Nərimanov adına Texnikumda, Pambıqçılıq İnstitutunda (indiki Azərbaycan Dövlət Aqrar Universiteti) müəllim, dosent, professor və kafedra müdiri vəzifələrində çalışır.

Göründüyü kimi Ə.Cavad həyatının 29 ilini müəllimlik kimi müqəddəs peşəyə bağlamışdır. İbtidai sinif müəllimliyindən ali məktəbin kafedra müdirliyinə qədər mürəkkəb bir inkişaf yolu keçmişdir. Azərbaycan Demokratik Respublikası dövründə "Azərbaycan dilinin sərfi və nəhvi" adlı ilk dərsliyin müəllifi olmuşdur. O, rus dili üzrə professor rütbəsi alan ilk azərbaycanlı alim idi, səkkiz-on dildə sərbəst oxumaq, danışmaq və yazmağı bacarırdı. Gəncə mədrəsəsində H.Cavid kimi filosof-şairdən, Abdulla Sur kimi tənqidçi-ədəbiyyatşünasdan dərs alan Cavad öz təxəllüsünü türkiyəli şair Əhməd Cavadın adından götürmüşdür. Beləliklə, eyni tarixi dövrdə türk dünyasında iki Əhməd Cavad yazıb-yaradırdı.

Əhməd Cavad Azərbaycan Xeyriyyə Cəmiyyətinin məsul katibi və ən fəal üzvlərindən biri idi. Hacı Zeynalabdin Tağıyevin köməyi ilə Seyfəlidə məktəb və uşaq bağçaları açılması Könüllünün tikilməsi Ə.Cavadın adı ilə bağlıdır. Təsadüfi deyil ki, M.Müşfiq Könüllü kəndinə şeir qoşmuş, oranı "Cavad-kənd" kimi təsvir etmişdir.

Ə.Cavad "Yaşıl qələmlər" adlı cəmiyyətin yaradıcısı və katibi, Azərbaycan Proletar Yazıçılar Cəmiyyətinin üzvü idi. ADR-ın milli marşlarının əksəriyyətini o yazmışdı. Bu gün dünya meridianlarında səslənən himnimizin mətnini də o qələmə almışdır. Lakin Əhməd Cavadı şagirdlərə təkcə şair kimi tanıtmaq düzgün olmazdı. O, konkret faktlara istinad edilməklə istedadlı şair, publisist, tərcüməçi, jurnalist, xeyriyyəçi, cəbhəçi-döyüşçü, politoloq, Azərbaycan Demokratik Cumhuriyyətinin baş ideoloqlarından biri kimi tanıdılmalıdır.

1920-ci ilin aprel hadisələrindən sonra Ə.Cavadın hüquqları daim pozulmuş, orijinal yaradıcılığının inkişafına imkan verilməmişdir. 1923-cü ildə Musavat Partiyasının liderlərindən Mirzəbala Məmmədzadənin Türkiyəyə qaçırılmasında Cavadı günahlandırıb həbs edirlər. Xuluq kəndində işlərkən dostluq etdiyi müəllim yoldaşı H.Musayev M.C.Bağırovun yanına gəlir və şairin azad olunmasını xahiş edir. Bağırov onu eşidir.

Ə.Cavad ikinci dəfə haqqında danışacağımız "Göygöl" şeirinə görə həbs edilir. Bu şeiri oxuyan o zamankı rəhbərlərdən S.Ağamalıoğlu demişdi: "Kim deyər ki, Azərbaycanın Puşkini yoxdur? Cavad Azərbaycan ədəbiyyatının Puşkinidir. "Göygöl" doğrudan doğruya Azərbaycan ədəbiyyatının incisidir". Lakin şairin bədxahlarından üç nəfər bildirir ki, şeir antisovet ruhludur. Dərhal Ə.Cavadın həbs olunması əmri verilir.

Beş-altı ay çəkən sorğu-sualdan sonra "Göygöl"ə heç bir siyasi rəng verə bilmirlər və şairi həbsdən buraxırlar.

Ə.Cavad 1920-1937-ci illərdə dəfələrlə həbs edilmiş, təqiblərə məruz qalmışdır.

Nəhayət, 1937-ci il martın 21-də şairi Azərbaycan Yazıçılar İttifaqının üzvlüyündən azad edirlər. Həmin il iyun ayının 4-də onu H.Cavid, M.Müşfiq və V.Xuluflu ilə eyni vaxtda həbsə alırlar. Oktyabrın 12-dən 13-ə keçən gecə 15 dəqiqəlik məhkəmənin qərarı ilə ona güllələnmə kəsilir. Lakin hökmü yerinə yetirməyə ehtiyac qalmır, çünki şair işgəncələrə dözməyib həlak olur.

Əhməd Cavad yaradıcılığından danışılarkən qeyd edilməlidir ki, həmişə təqiblərə və təhqirlərə məruz qalan şair hər dəfə həbs edilərkən evi ciddi şəkildə axtarılmış, əsərləri çox güman ki, məhv edilmişdir. Lakin yaradıcılığının əlimizdə olan nümunələri göstərir ki, o, həm romantik, həm də realist üslubda yazan incə duyğulu sənətkar olmuşdur. Şairin "Yazım gəl, baharım gəl", "Səhər-səhər", "Sevgi candan ayrılmaz", "Yuxuma gəlmişdin", "İmdad", "Axşamlar" və s. şeirləri dediklərimizə əyani sübutdur. Qeyd edək ki şairin dili aydın, rəvan və oxunaqlıdır; xalq şeir dilinə çox yaxındır.

"Göygöl" şeirini Əhməd Cavad 1925-ci ildə yazmışdır. Gölün ecazkar hüsnü-gündüzlər ətrafdakı dağlara, meşələrə, gecələr aya, ulduza ayna tutması şairi riqqətə gətirir. O, vətənin bu səfalı guşəsinə istirahətə gələnlərdən xahiş edir ki, dumanlar qoynunda mürgüləyən Göygölün seyrinə dalsınlar, ruhlarını, zövqlərini qidalandırsınlar.

Şeirdə şair sözün hərarəti ilə Göygölün ilahi mənzərəsini təsvir etmişdir. Fikir verək: Şam ağacları gölün mavi gözlərini görsünlər deyə bir-birinə boy verməyib göylərə dartılmışlar. Səmadakı pənbə buludlar yüngül mehin təsiri ilə hərəkət edirlər, lakin bu, adi bulud köçü deyil, onlar gölün başına fırlanırlar. Ətraf yerlər al-əlvan güllərə, çiçəklərə, yaşıl otlara boyanmışdır. Və bu boya məhz Göygölün xətrinədir. Bir azdan gələcək zəvvarlar üçün kəsiləcək qoyun həmin otları qırdıqca sanki ayrılıq məqamında gölün ayağını öpür.

Dərsin estetik təsirini artırmaq üçün Xalq artisti Şövkət Ələkbərovanın ifasında "Göygöl" mahnısının lent yazısını səsləndirmək, eləcə də şairin "Göygöl"ə görə həbsdən azad edildikdən sonra yazdığı aşağıdakı kiçik şeiri ifadəli oxumaq faydalıdır.

| | |
|---|---|
| *Ey Göy gölüm,*<br>*Ey göl gülüm!*<br>*Qoy göyərib,*<br>*Qoy mən ölüm!* | *Nəsən, kimsən sən?*<br>*Nisgilimsən sən!*<br>*Qoy açıq deyim,*<br>*Sevgilimsən sən!* |
| *Assınlar məni,*<br>*Kəssinlər məni!*<br>*Qoy türmələrə,*<br>*Bassınlar məni!* | *Borana düşdüm,*<br>*Yüz qana düşdüm!*<br>*Adını çəkdim,*<br>*Zindana düşdüm!* |
| *Neynirəm könlü?*<br>*Neynirəm dili?*<br>*Səndən yazmasam,*<br>*Neynirəm əli?* | *Könlüm tel olsun!*<br>*Yaşım sel olsun!*<br>*Bir dar qəfəs də*<br>*Qoy Göygöl olsun!* |

Fikirimizcə, şairin yüksək vətənsevərliyi və çəkdiyi məşəqqətlər barədə verilən bilgilər bu kiçik şeir vasitəsilə bir daha möhkəmləndirilər, həm də Əhməd Cavadın öz dili ilə təsdiq olunar.

Yekun saatında şeir üzərində bədii təsvir və ifadə vasitələrini seçməklə tamamladıq.

Gəncəyə üz tutduq. Səyahətimiz 2 günlük idi. Birinci gün dahi şairimiz N.Gəncəvinin məqbərəsini ziyarət etdik. O zaman məqbərə əsaslı təmir olunmamışdı. Fikrimdən S.Ə.Şirvaninin xatirələri keçdi. Şair Tiflisə gedərkən dahi şairi ziyarət etmişdi. Məqbərə şairin ürəyincə olmamış, köksünü ötürərək bir rübai yazmışdı.

*Ey Şeyx Nizami, ey nizami dağılan*
*Ey Gəncədə üzzü ehtişamı dağılan*
*Olmuşmu səninlə mən kimi aləmdə*
*Beyti, evi, məktəbi, kəlamı dağılan?*

Prezident İlham Əliyevin diqqət və qayğısı ilə Nizaminin, Sabirin, S.Ə.Şirvaninin və digər sənətkarların ev-muzeyləri müasir standartlara uyğun əsaslı təmir edilmişdir. Əlbətdə, bizə minnətdarıq söyləmək qalır.

Səyahətimizin ikinci günü sübh tezdən Göygölə yollandıq. Üzərinə şeh düşmüş lalələr elə bil bizi salamlayırdı. Biz də "Lalələr" mahnısı ilə cavab verdik. Nəhayət, Göygölə qalxdıq, füsunkar mənzərə bizi valeh etdi. Şagirdlərin sevinci yerə-göyə sığmırdı.

Artıq belə metod bizim üçün bir ənənəyə çevrilmişdi. Dərslərimizi heykəllər qarşısında, muzeylərdə aparırdıq, məktəbdə tədbirlər hazırlayırdıq.

Əziz müəllimlər, sizin üçün daha səmərəli interaktiv təlim üsulu seçilmişdir. Göygölün füsunkar təbiətini seyr etmək üçün Gəncəyə səyahətə ehtiyac qalmır.

Proyektor vasitəsilə Göygöl artıq sizin hüzurunuzdadır. Bədii təsvir və ifadə vasitələrini şeir üzərində deyil, canlı şəkildə seçmək mümkündür. Keçdiyiniz mövzunun yekun saatını tədbirlərlə tamamlamış olsanız, şagirdlərdə məktəbə, müəllimə və ədəbiyyata marağ artar.

Siz xatirələrdə yaşayarsınız. Necə ki, mənim baba, nənə olan şagirdlərim bu gün də o dərsləri arzulayır, xatırlayır və məni unutmurlar.

Müəllim üçün bundan artıq qiymət olmaz.

Məktəbdə işlədiyim uzun illər ərzində həmişə tədbirlərə xüsusi önəm vermişəm. Çoxillik pedaqoji təcrübəm göstərib ki, bu tədbirlərdə qoyulan mövzuları şagirdlər daha yaxşı mənimsəyirlər. Bir qocaman müəllim kimi tədbirlərlə bağlı təcrübəmi gənc müəllimlərlə bölüşmək istərdim.

Günlər keçir, illər illərə calanır. Çox şey silinir. Lakin həyatımızda heç zaman unutmayacağımız öz sevgi və qayğıları ilə dərin iz buraxan müəllimlərimizdir. Müəllim ömrü bir çırağa bənzəyir. Sönənə qədər bilik dolu hərarətini şagirdlərin duyğularına, idrakına hopdurur.

# Məktəblilər ekskursiyada



Akademik Zərifə Əliyeva adına liseyin 10-a2 və 10-a3 siniflərinin şagirdləri, valideyn və bir qrup müəllim Lənkəran rayonuna ekskursiya ediblər.

Ekskursiyanın təşkil olunması məktəblilərin asudə vaxtlarını səmərəli təşkil etmək, onların dünyagörüşünü, müvafiq bilik və bacarıqlarını artırmaq, şagirdlərə milli-mənəvi dəyərlərimizə hörmət hissini aşılamaq, tarixi abidələrimiz haqqında dolğun məlumatları çatdırmaq məqsədlərinə xidmət edir.

Lənkəran rayonuna təşkil olunmuş səfər ölkəmizin bölgələrinin məktəblilər tərəfindən daha yaxşı tanınması, o cümlədən onların Azərbaycanın zəngin turizm potensialı, tarixi-mədəni abidələri, muzeyləri ilə yaxından tanış olması baxımından mühüm əhəmiyyətə malikdir.

Ekskursiya çərçivəsində məktəblilər “Mandarin Sitrus bağları”na da olublar. Burada şagirdlərə əyani şəkildə ağaclara qulluq və digər aqrotexniki qaydalar barədə ətraflı məlumat verilib. Mandarin bağlarına edilən bu ekskursiya şagirdlər tərəfindən maraqla qarşılanıb.

Şagirdlər və valideynlər səfərin təşkil olunmasına xüsusi dəstək verən 10-a2-nin sinif rəhbəri Dursun Yaqubovaya, 10-a3-ün sinif rəhbəri Hüseyn Hüseynova, müəllimlər İradə Hacızadəyə, Günel Bağırovaya, Aynur Laçınovaya və Gülnar Həşimovaya öz təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, şagirdlərin bölgələrə ekskursiyalarının təşkil olunması onlara ölkəmizin tarixini dərindən öyrənmək, həmçinin ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə milli dövlət quruculuğu sahəsində görülmüş işlər və Prezident İlham Əliyevin həyata keçirdiyi dinamik sosial-iqtisadi inkişaf barədə tanış olmaq imkanı yaradır.

Liseyin direktoru Mehriban Vəliyevanın verdiyi məlumata əsasən, müəllim və valideynlərin birgə təşəbbüsü ilə vaxtaşırı olaraq, şagird, müəllim və valideynlərin müxtəlif bölgələrə səfərləri təşkil olunur. Bütün bunlar müəllim-şagird-valideyn münasibətlərinin inkişafı və uşaqların tədrisə motivasiyası baxımından müsbət nəticələr verir.


## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktorun müavini**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı “Mətbuat şöbəsi”
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6482, **Sifariş** 3872

**Məsul növbətçi:** O.Mustafayev


# “İtaliyada seçilmiş 7 pianoçudan biri də mən oldum”

## *Ləman Seyidova:* “Musiqimizi dünya arenalarında tanıtdırmaq ən ümdə arzumdur”




**Sifai SƏFƏROVA**

İstedadı və qeyri-adiliyi ilə yaşıdlarından fərqlənən bu qızla Elmlər Akademiyası metro stansiyası yaxınlığındakı Hüseyn Cavid bağında görüşdük. 10 yaşlı müsahibim öncə onun haqqında hansı mətbu orqanında məqalə dərc olunacağı ilə maraqlandı. Qəzetimizin adını eşidəndə sevincini gizlədə bilmədi. Dedi ki, bu qəzet biz şagirdlərin idmanda, musiqidə, təhsildə və başqa sahələrdə qazandığımız uğurlarla bağlı maraqlı məqalələr də dərc edir. Söhbətə yenicə başladığım bu istedadlı qızın qəzetimizə verdiyi qiymət ona olan marağımı bir daha artırdı. O, bağın sakit bir guşəsində oturacaqda yerini rahatladıqdan sonra həyatının musiqi ilə bağlı olan maraqlı anlarını aramla mənim də yaddaşıma köçürməyə başladı. Yaşadığı sevinc hisslərini mənə də yaşatdırdı. Çox xoş idi yeniyetmə bir qızın gərgin zəhmət hesabına qazandığı uğurlar barədə söhbəti onun öz dilindən eşitmək. Belə məqamda qürur hissi keçirməmək mümkün deyildi.

### Qran-pri mükafatı

Bakıdakı T.Həsənov adına 23 nömrəli tam orta məktəbin şagirdiyəm. Eyni zamanda, paytaxtdakı G.Şaroyev adına 35 nömrəli Onbirillik Musiqi Məktəbinin fortepiano ixtisası üzrə Əməkdar müəllim Kamilla Əmirovanın sinfində təhsil alıram. 2017-ci ilin dekabrında Avstriyanın Vyana şəhərində keçirilən pianoçuların II Beynəlxalq “Edelwiess” müsabiqəsində uğurla iştirak etdim. Müsabiqədə İ.S.Baxın “İkisəsli invensiya”, F.Şopenin “Polonez” və P.İ.Çaykovskinin “İlin fəsilləri” məcmuəsindən “Mart” əsərlərini məharətlə ifa etdim və ən yüksək mükafata - Qran-priyə layiq görüldüm.

### Uğurlarımı 8-9 yaşlarımda qazanmışam

2016-cı il mənim üçün yaddaqalan oldu. “Mozart Academy”də keçirilən Beynəlxalq Piano Müsabiqəsində iştirak etdim və II yerin sahibi oldum. İzmirdə keçirilən Beynəlxalq Piano Müsabiqəsində II, 2017-ci ildə “Clavi Cologne Beynəlxalq Piano Müsabiqəsində I, Almaniyanın Köln şəhərində təşkil olunan Beynəlxalq Piano Müsabiqəsində isə II yerlərə layiq görüldüm. Bir-birinin ardınca qazandığım uğurlar məni daha da ruhlandırır, öz üzərimdə daha səylə çalışmağa sövq edirdi. Bu nailiyyətləri mən hələ 8-9 yaşlarımda qazanmışam.

### Yay tətilim mənə bol-bol sevincli anlar yaşatdı

Tətil günlərində vaxtımı istirahətə yox, musiqiyə sərf etdim. Dünya klassiklərinin əsərlərini məşq etməyə başladım. Nənəm mənim ifalarımdan doymur, ilk yüksək qiymətlərimi də elə o verirdi. Ümumiyyətlə, hər dəfə ifalarıma qulaq asdıqca neçənci yerin sahibi olduğumu qabaqcadan söyləyir mənə sevimli Validə nənəm... Tətil günlərində beynəlxalq müsabiqələrə də qatılmışam. Xorvatiyanın Trogir şəhərində keçirilən “Summer Con Spirito 2019” beynəlxalq musiqi məktəbində və beynəlxalq festivalında professor Mira Marçenkonun ustad dərslərində iştirak etmişəm. İtaliyanın Breşiya şəhərində keçirilən “Talent Music Summer Courses and festival 2019” adlı müsabiqədə iştirak edərək birinci yeri qazanmışam.

Hər il İtaliyanın Breşiya şəhərində dünyanın istedadlı gənc pianoçuları üçün yay musiqi kursları və festivalı təşkil olunur. Mən də bu tədbirə dəvət alıb və görkəmli pianoçu Sergey Milşteynin sinfində ustad dərsləri keçdim. Breşiya şəhərində kurs keçən zaman festivalda pianoçu kimi iştirak etdim və 12 nəfərdən 6 istedadlı gəncin siyahısında adım çəkilərək orkestrlə birgə çıxış etmək imkanı qazandım.

### 10 yaşlı Ləman

Adımı eşidəndə hamı təəccübləndi. Çünki məndən başqa seçilənlər bakalavr, ya da magistr dərəcəsində təhsil alanlar idi. Mən isə 10 yaşlı balaca bir qız... Bütün tamaşaçıların baxışları mənə dikilmişdi. Orkestrlə birgə konsertdə “W.A.Mozart Piano Concerto 12” əsərini məharətlə ifa etdim.

### Beynəlxalq müsabiqələrdən üzüağ çıxmışam

Hər dəfə səhnəyə çıxanda həyəcanlı oluram. Beynəlxalq müsabiqə və festivallarda isə həyəcanım ikiqat artır. Çünki vətəndən kənarda ölkəmizi, doğma məktəbimi təmsil, müəllimlərimdən öyrəndiklərimə arxalanıb tamaşaçı qarşısında inamla çıxış edirəm. Amma xoşbəxtlikdən həyəcan heç zaman mənim ifama mane ola bilməyib. Bütün beynəlxalq müsabiqələrdən üzüağ çıxmışam.

Qeyd edim ki, İtaliyada keçirilmiş “Gioventu Festivalı”nda da iştirak etdim. İtaliyada nadir istedada malik olan ifaçılarla bağlı hər il keçirilən “Wunderkinder a Toblach 2019” ilin dəyərləndirilmə siyahısında seçilmiş 7 gənc pianoçudan biri də mən oldum. Bu uğurlarıma görə İtaliyanın Dobiakko bölgəsində “Festival della Gioventu 2019” adlı seminara dəvət almışam.

Bakı Musiqi Akademiyasında Təhsil Nazirliyinin dəstəyi və Bakı Media Mərkəzinin təşkilatçılığı ilə keçirilən “Simurq” musiqi festivalına 100-ə yaxın gənc pianoçu qatılmışdı. Onların arasında mənim də adım vardı. Qarşıma məqsəd qoydum ki, birinci olacağam, oldum da.

Həmin gün sevincimi anamla bölüşdüm. Anam deyir ki, Ləman balam, səninlə fəxr edirəm, sən mənim vüqarımsan, məni yaşadan sənin musiqi yarışmalarındakı qələbələrindir.

### İlk dəfə olaraq solo konsertlə çıxış etdim

2018-ci il mənim üçün uğurlu oldu. İlk dəfə olaraq pianoda solo konsertlə çıxış etdim. Tamaşaçıların alqışları məsuliyyətimi daha da artırırdı. Şükür ki, konsertim uğurlu alındı. Həmin ilin iyun ayında İtaliyanın Milan şəhərində keçirilən “İstedadlı pianoçular” müsabiqəsinə qatıldım və orada da qalib oldum. Oktyabr ayında isə “Premio Citta Di Padova” Beynəlxalq müsabiqəsində iştirak üçün yenidən İtaliyaya dəvət aldım. İtaliyada tez-tez olduğumdan elə bilirəm ki, orada hamı məni tanıyır.

2019-cu ildə Rusiya Federasiyasının Lipetsk şəhərində “K.İqumnov adına Beynəlxalq gənc pianoçuların müsabiqəsi” keçirilirdi, mən də həmin yarışmada iştirak etdim və II yerin sahibi oldum. Həmin il Belçikanın Kraynem şəhərində keçirilən “Cezar Frank adına beynəlxalq piano müsabiqəsi”ndə də iştirak etmək imkanı qazandım və yenə də II yeri tutdum. Sevinirəm ki, Mira Marçenko, Aleksandr Gindin, Daniil Sayamov, Tatyana Titova, Filipp Raskin, Sergey Milşteyn, Yuri Boqdanov və Vinsento Balzani kimi dahi pianoçulardan master-klass dərsləri almışam.

### Uğurlarımın qazanılmasında müəllimimin əməyi danılmazdır

Moskvada keçirilən “Musiqili Krasnoqorsk” festivalının iştirakçısı olaraq “Zəfər muzeyi”ndə təşkil olunan konsertdə nadir piano ifaçılarından biri Vaxtanq İmanovun dirijorluğu ilə kamera orkestrində, Mustafa Mehmandarovun dirijorluğu ilə “Xəzər” Kamera Orkestrində və A.Xaçexin dirijorluğu ilə Bazzini Consort Orkestrində çıxış etmək imkanı əldə etdim. Mən öz potensialıma inanıram. Gələcək planlarımsa çoxdur. Bütün nailiyyətlərimin qazanılmasında sevimli müəllimim Kamilla Əmirovanın misilsiz əməyi danılmazdır. Onun yetirmələri respublika və beynəlxalq piano müsabiqələrinin laureatları, I, II yerlərin qalibləri və Qran-pri mükafatçılarıdır. Mən də onlardan biriyəm və öz müəllimimlə fəxr edirəm. Arzularım çoxdur. Musiqimizi dünya arenalarında, böyük səhnələrdə tanıtdırmaq ən ümdə arzumdur. Xoşbəxtliyimi də elə onda tapacağam.

# Etibarsız sayılır

**Odlar Yurdu Universiteti** tərəfindən 2016-cı ildə Babayev Turab Müslüm oğluna verilmiş A-108333 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Respublikası Nazirlər Kabineti nəzdində Azərbaycan Xalq Təsərrüfatını İdarəetmə İnstitutu** tərəfindən 1999-cu ildə Bağırov Qulam Davud oğluna verilmiş A-037863 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2014-cü ildə Həmidli Gülnur Hafiz qızına verilmiş A-033109 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Ağstafa şəhər** 1 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Babayev Ceyhun Sahib oğluna verilmiş A-531896 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Şuduq kənd tam orta məktəbini 1992-ci ildə bitirmiş Məmmədov İskəndər Məhyəddin oğluna verilmiş A-188170 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Plan Uçot Texnikumu** tərəfindən 1980-ci ildə Şükürova (İsgəndərova) Hüsniyə İsfəndiyar qızına verilmiş AT-000826 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Sənaye Universiteti** tərəfindən 1991-ci ildə Ağayev Əkrəm Şirinbala oğluna verilmiş ФВ-I-083028 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2012-ci ildə Babayev Elvin Vaqif oğluna verilmiş B-250870 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2012-ci ildə Məmmədov Məzahir Nizami oğluna verilmiş B-240253 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dəniz Akademiyası** tərəfindən 2015-ci ildə Daşdiyev Elnur Azər oğluna verilmiş A-077219 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2012-ci ildə Yusifli Vüqar Elmidar oğluna verilmiş A-249744 nömrəli bakalavr diplomu və əlavəsi, 2015-ci ildə verilmiş AM-007116 nömrəli magistr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2018-ci ildə Qasımlı Bilal Mahir oğluna verilmiş CN-005073 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar şəhər** 6 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Ağayev Elşən Ələkbər oğluna verilmiş A-050775 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 281 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Məmmədov Məzahir Həsən oğluna verilmiş B-602047 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini** 2005-ci ildə bitirmiş Abdullayeva Mədinə Azər qızına 2006-cı ildə verilmiş B-054958 nömrəli fərqlənmə bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Akademik Zərifə Əliyeva adına Liseyin** eksperimental Pilot sinfini 2018-ci ildə bitirmiş İsmayılzadə Zaur Şucaət oğluna verilmiş E-088258 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Yengiyan kənd tam orta məktəbini 1985-ci ildə bitirmiş Bədirova Xuraman Rəhman qızına verilmiş AK-120397 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhəri** R.N.Musayev adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya məktəbini 2002-ci ildə bitirmiş Camalova Gülnar Hümbət qızına verilmiş A-638964 nömrəli tam orta təhsil haqqında nümunəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2019-cu ildə Cəfərov Nurlan İlqar oğluna verilmiş C-032425 nömrəli bakalavr diplomuna əlavə qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 67 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Qasımov Ceyhun Səyyad oğluna verilmiş 331413 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** İsmətli kənd tam orta məktəbini 1994-cü ildə bitirmiş Alışanlı Sona Əlifağa qızına verilmiş B-085887 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala şəhər** 4 nömrəli tam orta məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Novruzov Eyvaz Böyükağa oğluna verilmiş A-864224 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 210 nömrəli tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Abdullayeva Xəzəngül Gümrah qızına verilmiş A-191583 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** evdə fərdi təhsil məktəbini 2016-cı ildə bitirmiş Salahov Laçın Tahir oğluna verilmiş A-527398 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2008-ci ildə Süleymanova Sevinc Fəxrəddin qızına verilmiş B-118591 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 257 nömrəli tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Quliyeva (Səfərova) Elnurə Aydın qızına verilmiş 1039 nömrəli ümumi orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti nəzdində Azərbaycan Maliyyə İqtisad Kolleci** tərəfindən 2019-cu ildə Məmmədova Dilarə Tərlan qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayonu** Zarağan kənd 1 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Abbasov Vüqar Yaşar oğluna verilmiş B-725811 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Nəsimi adına şəhər 2 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Kazımova Dinarə Xaqani qızına verilmiş A-075130 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Balakən rayonu** Qaysa kənd tam orta məktəbini 1997-ci ildə bitirmiş Nuriyeva (Əhmədiyeva) Bikə Ramazan qızına verilmiş A-185746 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən rayonu** Talalar 1 nömrəli kənd tam orta məktəbini 1999-cu ildə bitirmiş Əhmədova (Mustafayeva) Təranə Rüfət qızına verilmiş A-317138 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər Texniki Kolleci** tərəfindən 2014-cü ildə Həmzəyev Murad Samir oğluna verilmiş AA-052611 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**DİN Polis Akademiyası** tərəfindən 2014-cü ildə Məhərrəmov Elnur Lütvi oğluna verilmiş AN-049807 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağstafa şəhər** Ə.Hüseynov adına 1 nömrəli məktəbin axşam sinfini 1994-cü ildə bitirmiş Bəndalıyev Vahid Müslüm oğluna verilmiş 33 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Göygöl rayon** Kərəmli kənd tam orta məktəbini 1995-ci ildə bitirmiş Mamedov Münasib Hüseyn oğluna verilmiş A-010494 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Musiqi Akademiyası** tərəfindən 2002-ci ildə Bağırova Arzu Əlvahid qızına verilmiş A-109466 nömrəli bakalavr diplomu və əlavəsi itdyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 1996-cı ildə Mirzəyev Nicat Telman oğluna verilmiş AB-I-021032 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 1999-cu ildə Hüseynova Ülviyyə Hüseyn qızına verilmiş AB-I-044089 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**ADNSU-nəzdində Bakı Neft Energetika Kolleci** tərəfindən 2018-ci ildə Bayrışlı Sücayət Cəmiyyət oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2008-ci ildə Seziner Cemre Cemal oğluna verilmiş BC-113033 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** 1 nömrəli məktəb-liseyi 2013-cü ildə bitirmiş Əliyev Ağanur Eyvaz oğluna verilmiş A-229416 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl rayon** Firuzabad qəsəbə tam orta məktəbini 2003-cü ildə bitirmiş Fərzəliyeva Nailə Vamik qızına verilmiş A-707452 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 115 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Abbasov Elvin İsa oğluna verilmiş AN-563324 nömrəli ümumi təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2008-ci ildə Rüstəmova Telli Rüfət qızına verilmiş B-119719 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Firdus Əhmədov, Nurəddin Heydərov və Sarvan İbrahimov Rauf Cəfərova əmisi

**LƏTİF NAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhər 267 nömrəli məktəb-liseyin pedaqoji kollektivi məktəbin ingilis dili müəllimi Mətanət Əhmədovaya qardaşı

**RÖVŞƏN SƏFİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Çevik məşğulluq

## Yeni nəsil əmək bazarındakı münasibətləri dəyişir



⇦ Əvvəli səh.1

**Rüstəm QARAXANLI**

Adətən sıralarına yeni işçi cəlb etmək istəyən şirkət və təşkilatlar potensial namizəd olaraq ali məktəbin son kursunda oxuyan gəncləri diqqətdə saxlayırlar. Son tədris ilinin ikinci yarısında keçirilən əmək sərgiləri yeni münasibətlər üçün əlverişli imkan hesab olunur. “LinkedIn” isə işəgötürmə strategiyasını tamamilə yenidən qurub. Sosial şəbəkə tək 4-cü kursda oxuyan tələbələri deyil, onlardan kiçiklərini də uzun müddət nəzərdə tutub diqqətdə saxlayır ki, başqa şirkətlərin “əlinə keçməsin”lər. Bu məqsədlə ali məktəblərdə tez-tez rekrutinq tədbirləri təşkil olunur. “Bizim yeni əməkdaşlarımız yaxşı anlayırlar ki, əmək bazarı çox dəyişib, artıq onların nənə, baba və valideynlərinin iş axtardıqları vaxtlar deyil. Bunu başa düşən gənclər professional planda böyüyüb, inkişaf edib uğur qazana biləcəkləri şirkətdə işləmək istəyirlər” - deyə K.Holl söyləyir.

### “Köçəri” nəsil

1990-cı illərin sonlarında həyata gəlmiş şəxslərin əmək bazarındakı çəkisi getdikcə artacaq və belə görünür ki, işəgötürənlərin əksəriyyəti onların gəlişi ilə baş verəcək dəyişikliklərə hazır deyillər. Yeni tip əməkdaşlarla işləmək üçün işəgötürənlər hansı tədbirlərə əl atmalıdırlar? Ekspertlərin fikrincə, hazırda əmək bazarını düşündürən ən vacib suallardan biri məhz budur. Z nəsli professional fəaliyyətə indi qədəm qoyur, ancaq onun barəsində “əfsanə”lər xeyli vaxtdır dolaşır. Proqnozlara görə, proqressiv texnologiyalar epoxasının yetirmələri olan “rəqəmsallar” bazarın ənənəvi iş ahənginə inqilabi dəyişikliklər gətirəcəklər. Artıq bu gün IT sferasının təmsilçiləri idarəetmə sisteminin transformasiyasına start veriblər. Bu da təsadüfi deyil, çünki hesablamalara görə, Z nəslinin təmsilçilərinin 91%-i iş yeri olaraq texnoloji şirkətləri seçir. Bu transformasiya iki səbəblə izah olunur: texnoloji sahədəki dəyişikliklərin sürəti və yeni dalğa işçi personalının özəlliyi. Psixoloqlara görə, sosial şəbəkələr bu şəxslərdə elə bir dünyagörüşü formalaşdırıb ki, onlar nəyəsə və ya kiməsə sabit münasibətə malik deyillər. Bu gün trend olan sabah lazımsız olur. Z-lər hesab edirlər ki, uğur sürətlə və qəflətən gəlir, odur ki, belə bir dəyişkən mühitdə məqsəd üçün daimi cəhdlərə ehtiyac yoxdur.

Bu məqama diqqət yetirək: əgər dünənədək əməkdaş rəhbərliyə loyallıq nümayiş etdirməklə bir iş yerində uzun müddət işləyib karyera pilləkəninin ən yüksək nöqtəsinə qalxmağı özünün əsas peşəkar amalı hesab edirdisə, yeni nəsil üçün fərqli prioritetlər mövcuddur. Onlar yeni təəssüratları və təcrübəni daha çox qiymətləndirirlər. Bu səbəbdən də sabitlik və rəhbər vəzifələr onlar üçün anlamsızdır. Yeniliklər axtaran “rəqəmsallar”ın iş yeri və fəaliyyət sferalarını dəyişmək meyli bizim üçün qeyri-adi görünməməlidir. “Odgers Berndtson” şirkətinin icraçı həmkarı Roman Tişkovski deyir ki, “zetlər” bir vəzifədə 60-70 yaşadək qalıb özünü realizə etməyi mümkünsüz sayırlar. Hər gün bir peşə və iş sahəsi sıradan çıxır. Bir sferada “ilişib” qalmağın anlamı varmı? Məhz buna görə də “zetlər” belə mobil və dəyişkəndirlər.

### Məsafədən əmək fəaliyyəti

Z-lərin gəlişi həyəcan təbilinin çalınmasına əsas versə də, əmək bazarının əksər oyunçuları hələlik xüsusi narahatlıq hiss etmirlər. Belə ki, “rəqəmsallar”ın iş yerlərinə keçmələrinə indi start verilib və bu proses müəyyən vaxt aparacaq. Bir məqama da diqqət yetirmək lazımdır: yeni nəslin nümayəndələrində “öz işi”ni başlamaq meyli çox güclüdür. Sosial şəbəkələrin “daimi” sakinləri olmaları səbəbindən onlar muxtar fəaliyyətə meyillidirlər. Elə buna görə də hər hansı işdə bir müddət işlədikdən sonra çıxıb öz layihələrinə start verirlər. Bu baxımdan, şirkətlər və təşkilatlar bir tərəfdən gənc əməkdaşlarının onları tərk etmələrini adi qəbul etməlidirlər, digər tərəfdən isə elə işgüzar mühit yaratmağa çalışmalıdırlar ki, “rəqəmsallar”ı özlərini realizə etməyə stimullaşdırsınlar.

Statistikaya görə, gənclərin işdən çıxmaları hallarının 75%-i rəhbərliklə fikir ayrılıqları səbəbindəndir. Maraqlıdır ki, konfliktin başlıca səbəbi heç də işgüzar məqamlar deyil. Tərəflər sadəcə olaraq bir-birləri ilə effektiv ünsiyyət qura bilmirlər. Təbii ki, belə şəraitdə qarşıya nə aydın məqsəd qoymaq mümkündür, nə də ona çatmaq. Buna görə də hazırda şirkətlər orta və yuxarı təbəqə menecmentə yeni idarəetmənin əsasları barədə treninqlər təşkil etməyə başlayıblar. İşəgötürənlər vəzifə təlimatlarına yenidən baxmalıdırlar və belə görünür ki, bunun alternativi də yoxdur. Daha kreativ olmaq lazımdır, “işçi borcludur və etməlidir” formatı artıq işə yaramır. Gənclik bu yanaşmanı qəbul etmir.

“Forbes”in keçirdiyi sorğuda iştirak edən ekspertlər belə bir mövqedə həmfikirdirlər ki, biznesin yeni nəslin əmək bazarına çıxması ilə hər hansı çətinlik hiss etməməsi müvəqqəti haldır. Nə vaxt ki, Z-lər işçi qüvvəsinin əsas kontingenti olacaqlar, işəgötürənlərin hamısı iş prosesinə yenidən baxmaq məcburiyyətində qalacaq. Sabaha hazır olmaq üçün artıq indidən etibarən elə idarəetmə sistemlərini işləyib hazırlamaq lazımdır ki, onların tətbiqi ilə işgüzar mühit daha rəngarəng olsun və “zetlər”in təcrübə əldə etmək istəyi uzunmüddətli prosesə çevrilsin.

Yeni nəsil üçün iş vaxtı və özəl həyat arasında tarazlığa nail olmaq başlıca amaldır. Ona görə də işəgötürən elə bir optimal məşğulluq formatına sahib olmalıdır ki, “gənc kadrların qaçması”na səbəb olmasın. Ekspertlər bu baxımdan “layihə işi” modelini təklif edirlər. Yəni işçi özü iş vaxtını və məqsədlərini müəyyən edir. Bu yanaşmaya çevik məşğulluq da deyə bilərik. Müxtəlif kvalifikasiya səviyyəsi olan işçilər birdəfəlik layihələrə cəlb olunurlar. Məsələn, belə işçilərin bir qismini məsafədən fəaliyyətə də keçirmək olar. Yəni, əməkdaşın iş yerinə gəlməsinə prinsip etibarilə ehtiyac qalmır.




“Amazon” şirkəti bir qədər fərqli yolla - məcburi yerdəyişmə formatı ilə gedir. Bu, nə deməkdir? İşçinin şirkət daxilində yeri hər iki ildən bir dəyişir. Əməkdaş rotasiya proqramı əsasında şirkət daxilindəki müxtəlif şöbələrdə işləyir. Özü də söhbət yalnız şöbə və departament dəyişikliyindən getmir. Tapşırılan iş də fərqli olur, coğrafi ərazilər də. Bu yanaşma daha bir mühüm problemin həllinə səbəb ola bilər: əgər kadr işlədiyi işdə özünü rahat hiss etmir və iş yerini tərk etmək istəyirsə, onun fərqli fəaliyyət sferası və ya başqa şöbəyə köçürülməsi ilə problemin həllinə nail olmaq mümkündür. Bu isə dəyərli kadr itkisinin qarşısının alınması deməkdir. Əməkdaşın bu gün etdiyi, sabah maraqsız və qeyri-aktual ola bilər. Şirkət daxilində yer və mövqe dəyişikliyi isə kadr itkisinə qarşı ciddi sığorta tədbiridir.

Belə görünür ki, işçinin iş yerini itirmək qorxusu dövrü arxada qalır. Təbii ki, söhbət yaxşı işçidən gedir. Reallıqdan qaçmaq mümkün deyil və bundan ibarətdir ki, bizim istəyimizdən asılı olmayaraq iş yerləri tədricən yeni nəslin nümayəndələri ilə təmin olunacaq. “Yenilər” köhnə qaydalarla oynamaqda maraqlı deyillər və onları fərqləndirən mühüm xüsusiyyət budur ki, özlərini rahat hiss etmədiklə asanlıqla gedə bilirlər. Bu isə şirkət və ya təşkilat üçün bacarıqlı kadrın itirilməsi deməkdir. Çox güman ki, məhz bu gerçəklik yeni əmək münasibətlərinin əsas prinsipi olacaq.

---

# Şagirdlər rəqəmsal dünyada yaşamağa hazırdır?




## Beynəlxalq tədqiqat şagirdlərin kompüter və informasiya savadlılığını qiymətləndirib

⇦ Əvvəli səh.1

**Oruc MUSTAFAYEV**

### Qızlar daha yüksək nəticələr göstəriblər

Araşdırmada Rusiyanı təmsil edən Moskvanın səkkizinci sinif şagirdlərinin 34 faizi informasiya savadlılığının yüksək səviyyəsini göstərib. Maraqlı məqam odur ki, qızlar daha yüksək nəticələr göstəriblər, onlar 552 bal toplayıblar. Oğlanlar orta hesabla bir az aşağı - 546 bal əldə ediblər. Araşdırmada iştirak edən müəllimlər məktəblərdə informasiya texnologiyalarının mövcudluğu və əlyetərliyi ilə bağlı anketləri doldurublar. Rusiya paytaxtı ən yüksək nəticələr göstərib. Paytaxt müəllimlərinin əksəriyyəti məktəblərinin kifayət qədər müasir kompüter avadanlığına malik olduğunu, yüksəksürətli internetə çıxış əldə etdiyini və müəllimlərə İKT sahəsində peşə vərdişlərinin inkişaf etdirilməsi üçün imkanlar yaradıldığını bildiriblər.

### Uşaqların İT bacarıqlarının inkişafına hansı amillər təsir göstərir?

Tədqiqat gedişində VIII sinif şagirdlərində İT səlahiyyətlərinin formalaşması səviyyəsi qiymətləndirilib. Tədqiqat aşağıdakı sualları cavablandırmağa imkan verir: məktəb təhsili şagirdlərin İT səlahiyyətlərinin formalaşmasına necə kömək edir və uşaqların İT bacarıqlarının inkişafına hansı amillər təsir göstərir. Tədqiqat tapşırıqları aparıcı beynəlxalq ekspertlərin və tədqiqata qoşulmuş ölkələrin iştirakı ilə hazırlanır. ICILS testi tam şəkildə avtomatlaşdırılıb. Test modullarının iştirakçıları kompüterdə çıxış edirlər. Tapşırıqlar qapalı sistem əsasında qurulub. İştirakçılar digər resurslara çıxışı olmayan xüsusi yaradılmış mühitdə informasiyanın axtarışını, işlənməsini və ötürülməsini həyata keçirir. Fənn müəllimləri, İT koordinatorları və məktəb direktorları anket sorğularında iştirak edirlər. Tədqiqat iştirakçısı olan ölkələr, həmçinin təhsil siyasəti və təşəbbüsləri, infrastruktur resursları və müəllimlərin İT səriştələrinin peşəkar səviyyəsi haqqında məlumat verirlər.

Tədqiqatın nəticələri İT siyasətinin və təcrübəsinin məktəblilərin tədris nailiyyətlərinin səviyyəsinə təsirinin təhlilinin aparılmasında istifadə olunacaq. Tədqiqat tələbələrin, məktəblərin, müəllimlərin, məktəb direktorlarının müvəffəqiyyətinin qiymətləndirilməsini nəzərdə tutmur. Toplanmış məlumatlar ümumilikdə respondentlərin eyniləşdirilməsi olmadan təhsil sistemlərinin monitorinqini aparmağa imkan verəcək.

### Şagirdlər İKT-nin təhsildə roluna müsbət yanaşırlar

Tədris Nailiyyətlərinin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın (IEA) icraçı direktoru dr. Dirk Hastedt beynəlxalq tədqiqatın nəticələrini belə şərh edib: “Qeyd etmək sevindirici haldır ki, tədqiqatda iştirak edən bütün ölkələrin təhsil sistemlərində şagirdlər və müəllimlər İKT-nin təhsildə və cəmiyyətdə roluna müsbət yanaşırlar. Bundan əlavə, tələbələrin əksəriyyəti məktəbdə kompüter və informasiya savadlılığı məsələlərini öyrəndiklərini, 74% isə məktəbdə İKT vasitəsilə informasiya axtarmaq üçün necə öyrədildiklərini bildirib. Sevindirici haldır ki, milli təhsil sistemlərində tələbələrin əksəriyyəti tədris üçün proqram təminatı ilə bağlı resurslara çıxış əldə edirlər”.

D.Hastedt hesab edir ki, rəqəmsal cihazlardan istifadə səlahiyyətləri bütün dünyada vacibdir. Gənclərin məktəblərdə bu bacarıqları öyrənmələri və onların müəllimlərinin müasir təhsilin bu əsasının təmin edilməsində lazımi dəstək almaları son dərəcə əhəmiyyətlidir.

Araşdırmanın direktoru Julian Freire qeyd edir ki, ICILS şagirdlərin hesablama düşünmə bacarıqlarını birbaşa ölçən ilk tədqiqatdır. Bu, həqiqətən bir tədqiqatçı kimi maraqlıdır, çünki bu, bizdə gənclərin problemləri idarə olunan parçalara necə bölməsi, problemləri təhlil edə bilməsi, ardıcıllığı axtarmaq və sonda tapşırığın həlli üçün ardıcıl təlimatlar yarada biləcəyi barədə təsəvvür formalaşdırır.

Bundan əlavə, ICILS təhsil sistemləri, məktəblər və müəllimlərin təhsilalanları necə dəstəkləməyə çalışdıqları, onların kompüter və hesablama bacarıqlarını inkişaf etdirən kontekstlər haqda zəngin məlumat verir.

“ICILS-nın nəticələrindən rəqəmsal dünyanın əsas bacarıqlarından istifadə edilməklə təhsilin davamlı surətdə yaxşılaşdırılması üçün istifadə olunacağını görmək çox xoşdur və biz 2023-cü ildə keçiriləcək növbəti tədqiqata qədər daha böyük inkişaf gözləyirik”, - deyə Julian Freire bildirib.

Qeyd edək ki, 2013-cü ildən sonra aparılan beynəlxalq tədqiqatın sayca ikinci mərhələsi göstərib ki, tələbələrin yalnız 2%-i internetdə tapılan informasiyanı tənqidi qiymətləndirmək qabiliyyətini nümayiş etdirib. ICILS dinamik məlumat mühitimizdə təhsilalanlara uğur qazanmaq üçün tələb olunan əsas bilik, bacarıqların aşılanması ilə məşğul olur. ICILS ölkələrə XXI əsrdə gənclərdə kompüter və informasiya savadlılığı bacarıqlarının inkişafı haqqında etibarlı, müqayisə edilə bilən məlumatlar təqdim edir. Bundan əlavə, ICILS hesablama düşüncə bacarıqlarının dərhal qiymətləndirilməsində də unikaldır.

Tədqiqatın ikinci dövrünün nəticələri gənclərin “rəqəmsal aborigenlər” olduğuna dair ümumiləşdirməni şübhə altına alır və rəqəmsal cihazların istifadəsinə təsir göstərməklə onların tətbiqi üzrə ekspert biliklərini inkişaf etdirir. Aparılan tədqiqat göstərir ki, şagirdlərə və onların müəllimlərinə yalnız bir informasiya-kommunikasiya avadanlığının (İKT) verilməsi avtomatik olaraq rəqəmsal savadlılığın mürəkkəb vərdişlərinin inkişafına gətirib çıxarmır. Şagirdlər kompüterlərdən necə səmərəli istifadə etməyi öyrənməli və onların müəllimləri tədrisdə İKT-nin istifadəsində dəstək almalıdırlar.

Qeyd edək ki, kompüter və informasiya savadlılığının tədqiqi 5 ildə bir dəfə IEA-Tədris Nailiyyətlərinin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiya tərəfindən həyata keçirilir. Beynəlxalq tədqiqatda Almaniya, Danimarka, İtaliya, Qazaxıstan, Koreya, Lüksemburq, Rusiya, Uruqvay, ABŞ, Finlandiya, Fransa və Çili iştirak edib.